HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 29 (769) ■ 29 iyul 2015 www.vergiler.az Qiyməti: 40 qəp.

# İlyarımlıq diplomatik səylərin nəticələri

*Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun Azərbaycana rəsmi səfəri göstərdi ki, Avropa İttifaqında Şults və Lunaçik kimi antiazərbaycan ovqatlı siyasətçilər varsa, Donald Tusk kimi Azərbaycanın əhəmiyyətini yüksək qiymətləndirən nüfuzlu siyasətçilər də mövcuddur. Elə siyasətçilər ki, problemlərin müzakirəsi ilə yanaşı, dövlətlərin bərabərhüquqlu münasibətlərinin və daxili işlərə*



Nəzərə alaq ki, Polşanın keçmiş baş naziri olan Donald Tusk Yunanıstanın da Avropa İttifaqında alçaldılması və bir sıra dövlətlərin hegemonluq iddialarına etiraz edən siyasətçidir. O, Yunanıstanın baş naziri ilə kəskin dildə danışanlara «Biz dostumuza kömək etmək istəyiriksə, onu alçaltmamalıyıq» demiş və alqışlarla qarşılanmışdı.

Avropa İttifaqı Şurasının Prezidentinin Azərbaycana münasibəti və elan etdiyi mövqe real siyasətin konturlarını göstərir. D.Tusk realist və şərqi Avropa problemlərinə yaxından bələd olan siyasətçidir, bu səbəbdən Azərbaycana münasibəti də pozitivdir. Eyni zamanda o, Avropada hegemonluq etmək arzusunda olan dövlətlərin aqressiv siyasətindən tarixboyu əziyyət çəkmiş - bir neçə dəfə ərazisi böyük dövlətlər tərəfindən bölüşdürülmüş, iki dünya müharibəsində darmadağın edilmiş Polşanı təmsil edir. Odur ki, Donald Tuskun Azərbaycana ədalətli münasibətinin Polşanın siyasi tarixinin dərsləri ilə də əlaqəsi olmamış deyil.

Bu səfər haqda danışmazdan əvvəl onların qlobal fonuna diqqət yetirmək vacibdir. Bir tərəfdən dünyada praktik olaraq iqtisadi və siyasi çoxqütblülük formalaşıb, o biri tərəfdən də Ukraynada Krım probleminin meydana çıxması ilə Avropa İttifaqı və ABŞ-da «10 Helsinki prinsi» sırasından «ərazi bütövlüyü» aparıcı amilə çevrilib. Geosiyasi çoxqütblülük və «ərazi bütövlüyü»nün güc mərkəzlərinin marağına uyğun olması Azərbaycan üçün yeni və əlverişli beynəlxalq siyasi vəziyyət yaratdı. Prezident İlham Əliyev bu yeni situasiyanı dərhal dəyərləndirərək Qarabağ münaqişəsinin həlli və işğal olunmuş ərazilərin azad olunması üçün güzəştsiz siyasət aparmağa başladı. Strategiya belədir: Azərbaycanın ərazi bütövlüyü məsələsi Ukraynanın ərazi bütövlüyü məsələsi ilə eyni müstəvidə baxılmalıdır. Ancaq elə qüvvələr var ki, onlar bu iki oxşar məsələni bir-birindən ayırıb onlara müxtəlif, hətta bir-birinə zidd prinsiplər əsasında yanaşmanı qəbul etdirməyə çalışırlar.

Belə situasiyada Azərbaycanın müxtəlif dairələrlə sərt dioloqu müşahidə olundu. Və bir daha milli maraqlardan güzəştə getməmək üçün ciddi müqavimət göstərmək və öz ədalətli mövqeyini qəbul etdirmək lazım gəldi. Ancaq belə görünür ki, sonda Azərbaycanın mövqeyinin ədalətli olması, milli maraqları qətiyyətlə müdafiə etməsi və yaranmış real beynəlxalq siyasi vəziyyət səbəbindən rəsmi Bakının mövqeyini qəbul etməyə başladılar. İyulun 2-9-da ATƏT PA-nın 24-cü illik sessiyasında münaqişələrin həlli ilə bağlı qəbul edilmiş qətnamə Azərbaycanın istədiyi və beynəlxalq hüquqa tam uyğun müddəaları təsdiqlədi. Həmin müddəalardan ən mühümü Azərbaycan, Gürcüstan, Ukrayna və Moldovadakı münaqişələrin «ərazi bütövlüyü» prinsipinin əsas götürülməsi ilə həllinin vacibliyini təsdiqlədi. İkinci mühüm məqam isə «ərazi bütövlüyü» prinsipinin Helsinki prinsiplərindən daha biri olan «xalqların müqəddəratını təyinetmə» prinsipindən üstün tutulması və onun yalnız ərazi bütövlüyü çərçivəsində həyata keçirilməsinin mümkün olduğunu rəsmən bir daha elan etdi. Beləliklə, Prezident İlham Əliyev 2014-cü ilin fevralından başlayaraq apardığı Qarabağ münaqişəsinin Ukrayna münaqişəsinin həlli ilə eyni paketə daxil edilməsi uğrunda diplomatik mübarizəsi ilk mühüm nəticəsini verdi: Qarabağ münaqişəsinin həllində əsas qurum olan ATƏT-in PA-sı bu siyasətin rəsmi əsasını qoydu. Ancaq bu nəticəyə gedən yol asan olmadı. Azərbaycan və şəxsən Prezident İlham Əliyev ən müxtəlif mərkəzlərdən sinxronlaşdırılmış hücumlara məruz qaldı. Amma bu yoldan geri çəkilmədi.

Çoxqütblülük məhz bu kontekstdə diplomatik manevrlər üçün imkan yaratdı. Dövlət başçısı çoxqütblü dünyanın verdiyi imkanlardan maksimim istifadə edərək Azərbaycanın milli marağını rəsmiləşdirməyə nail oldu. Nəticə belədir: Ukrayna münaqişəsinin həllinə tətbiq olunan prinsiplər Dağlıq Qarabağ münaqişəsinin həllinə də tətbiq olunmalıdır. Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun Bakıda verdiyi Dağlıq Qarabağ münaqişəsinin həlli prinsipləri haqda bəyanat da elə ATƏT PA-nın qəbul etdiyi qətnamənin yuxarıda qeyd etdiyimiz müddəlarına uyğun idi.

Deməli, Avropa İttifaqı Azərbaycan Prezidentinin mövqeyi ilə razıdır və bu məsələdə mövqelər üst-üstə düşür. ATƏT PA-nın sözügedən qətnaməsi və Donald Tuskun verdiyi bəyanata əsasən demək olar ki, Prezident İlham Əliyevin 2014-cü ilin fevralından 1 il yarım ərzində apardığı diplomatik səylər qarşıya qoyulmuş proqramın mühüm bir hissəsinin yerinə yetirilməsi ilə başa çatıb. İndi qəbul olunmuş prinsiplərin praktikada tətbiqi mərhələsi başlayır.

...Bakıdakı danışıqların yekunu haqda Donald Tuskun bəyanatı münasibətlərin strategiyası haqda anlaşmanın nədən ibarət olduğuna ortaya qoydu: «Biz yeni, geniş, ikitərəfli razılıq vasitəsilə münasibətlərimizin daha yaxşı necə irəliləməsinə dair müzakirə apardıq. Biz yeni danışıqlar mərhələsi və strateji tərəfdaşlıq sazişi üzərində razılığa gəldik».

Regional təhlükəsizlik məsələlərinə gəldikdə isə bu kontekstdə konkret problem Dağlıq Qarabağ münaqişəsinin həllidir. Azərbaycan Prezidenti beynəlxalq ictimaiyyətdən, təbii ki, o cümlədən Aİ-dən gözləntilərini konkret ifadə etdi. Donald Tusk isə cavabında Qarabağ münaqişəsinin ərazi bütövlüyü, suverenlik və müstəqillik prinsipləri əsasında həllinin vacibliyini elan etdi, münaqişənin həllini Aİ üçün prioritet olduğunu bildirdi, status-kvonun yolverilməzliyini vurğuladı.

Beləliklə, Donald Tuskun Qarabağ münaqişəsinə dair bəyanatı indiyə qədər olan, məsələn Barrozunun bəyanatından daha konkret və birmənalıdır: «Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və müstəqilliyini tanıyır. Avropa İttifaqı və ona üzv olan dövlətlər «Dağlıq Qarabağ respublikasını» tanımır. Status-kvo qəbulolunmazdır. Dağlıq Qarabağ münaqişəsinin həlli Aİ üçün prioritet olaraq qalır».

2014-cü ildə J.M.Barrozu tərəfindən verilmiş bəyanatla 2015-ci ildə D.Tusk tərəfindən verilmiş bəyanatların məzmun fərqi ortadadır. Bu fərq Prezident İlham Əliyevin son 1 ildə apardığı siyasətin diplomatik nəticəsidir və bu, münaqişənin həllində dəstək istəyən Azərbaycana doğru Aİ-nin atdığı addım kimi qiymətləndirilə bilər.

Avropa İttifaqının Azərbaycana tərəf atdığı ikinci mühüm addım odur ki, «Şərq» tərəfdaşlığı proqramına münasibətdə ölkəmizin mövqeyi nəzərə alınacaq. D.Tusk Qarabağ münaqişəsi ilə bağlı olduğu kimi, bu məsələdə də kifayət qədər konkret idi: «Biz «Şərq tərəfdaşlığı» proqramını da müzakirə etdik. Avropa İttifaqının niyyəti ondan ibarətdir ki, bu siyasət inkişaf etdirildikcə hər bir tərəfin maraqları və arzuları daha yaxşı nəzərə alınsın». Azərbaycanın da istəyi elə budur.

Donald Tuskun səfəri zamanı Aİ-nin Azərbaycan və Prezident İlham Əliyevi təkcə Cənubi Qafqazla bağlı deyil, Mərkəzi Asiya və Yaxın Şərqlə bağlı siyasətdə də vacib tərəfdaş kimi qəbul etdikləri, daha doğrusu, Azərbaycanın və Prezident İlham Əliyevin Mərkəzi Asiya və Yaxın Şərq məsələlərində də xüsusi rolu etiraf olunur.

...Bu, Azərbaycanın daha bir strateji əhəmiyyətini göstərən istiqamətdir. Həm də o deməkdir ki, Azərbaycan Mərkəzi Asiya üçün də təkcə coğrafi deyil, eyni zamanda siyasi və iqtisadi, təhlükəsizlik qapısıdır. İndiki halda sadaladığımız faktlar göstərir ki, Azərbaycanın coğrafi mövqeyi milli maraqlar üçün düzgün istifadəyə yönəldilib. Nəticədə Azərbaycan Avropanın Mərkəzi Asiya siyasətində açar dövlətə çevrilib.

Yaxın Şərq məsələsi isə hazırda daha aktualdır. Belə ki, Türkiyə və ABŞ-ın Suriya ərazisində İŞİD və PKK-ya qarşı hərbi əməliyyatlarına paralel olaraq Ermənistan silahlı qüvvələri Gədəbəy və Tovuzda atəşkəsi intensiv şəkildə pozmağa başladılar. Bu da Ermənistanın hansı böyük oyunun içərisində olduğunu göstərir.

Ancaq prezidentlərin bəyanatları göstərir ki, strateji tərəfdaşlıq başqa sahələri də əhatə edir və edəcək. Prezident İlham Əliyev Aİ-ni Azərbaycan üçün fövqəladə əhəmiyyət kəsb edən BTQ dəmiryolu ilə daşımalarda strateji tərəfdaş kimi gördüyünü bəyan etdi. Təbii ki, bu marşurut Aİ üçün də fövqəladə əhəmiyyət kəsb edir və Azərbaycanın da Avropa üçün strateji əhəmiyyətini müəyyənləşdirən layihədir. Enerji sahəsində isə Azərbaycanın Aİ üçün əhəmiyyəti əvəzolunmazdır. Donald Tusk Azərbaycanı etibarlı tərəfdaş və yeni şaxələndirmə mənbəyi kimi xarakterizə etdi. Bu isə Azərbaycana əvəzolunmazlıq imkanı verir.

Demokratiya, insan haqları məsələlərinə gəldikdə isə Aİ Şurasının prezidenti Donald Tusk bu mövzu ilə bağlı fikirlərini ifadə etdi. Prezident İlham Əliyev isə Azərbaycanın Avropa ilə dini tolerantlıq və multikulturalizmlə bağlı problemlər sahəsində əməkdaşlıq edə biləcəyini vurğuladı. Yəni Avropa demokratiya məsələsində dəstəyini, Azərbaycan isə dini tolerantlıq və multikulturalizm sahəsində yardımını təklif etdi. Yəni bu istiqamətdə də bərabərhüquqluluq və tərəfdaşlıq prinsipi əsas götürülür.

Beləliklə, Azərbaycan - Avropa İttifaqı sammitinin nəticələri nədən ibarətdir? Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 13 iyul 2015-ci il tarixli iclasında səsləndirdiyi və onun etirazına səbəb olan məqamlarla Donald Tuskun səfərinin nəticələrini müqayisə etdikdə, bütövlükdə yekunun nədən ibarət olduğunu görmək mümkündür. Məsələn, Prezidentin müşavirədə səsləndirdiyi iradlar bunlar idi: assosiasiya sazişinin Azərbaycanı qane etməməsi; Avropada bəzi dövlətlərin başqa üzvlərdən üstün mövqe, hegemonluq uğrunda mübarizəyə başlaması, çətin vəziyyətə düşənlərin alçaldılması nümunəsi; Dağlıq Qarabağ münaqişəsinə ədalətsiz münasibət.

Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun Bakıya səfərinin nəticələrini bu parametrlər üzrə müqayisə edək. Assosiasiya sazişinin Azərbaycanı qane etməməsi məsələsi haqda Tuskun bəyanatı belədir: «Bu məsələ üzrə hər bir tərəfin maraqları və arzuları daha yaxşı nəzərə alınsın». Bu Azərbaycanın mövqeyinin nəzərə alınmasıdır və bizi qane edir.

İkinci irada münasibətdə isə onu demək lazımdır ki, məhz polşalı Donald Tuskun Bakıya gəlməsi və uğurlu danışıqlar aparması Aİ-nin Azərbaycanla münasibətlərdə Avropada hegemonluq iddialarında olan dairələrin prinsiplərini deyil, həmin hegemonluğa qarşı duranların, bərabərhüquqlu tərəfdaşlıq istəyənlərin prinsipləri tətbiq edilir. Qeyd etdiyimiz kimi, D.Tusk Yunanıstanın alçaldılmasına etiraz edən qrupa aiddir. Bu da Azərbaycanı qane edir.

Keçək Azərbaycan Prezidentinin etirazına səbəb olmuş «Dağlıq Qarabağ münaqişəsinə ədalətsiz münasibət»lə bağlı üçüncü məqama. Donald Tuskun Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı bəyanatı Barrozunun 2014-cü ilin iyununda Bakıya səfəri zamanı verdiyi bəyanatdan xeyli konkret, birmənalıdır. Bu bəyanat münaqişənin həllində ərazi bütövlüyü, suverenlik, müstəqillik prinsiplərini əsas götürür. Onun bəyanatında ümumiyyətlə «müqəddəratı təyinetmə» ifadəsi yox idi. Eyni zamanda, D.Tuskun status-kvonun yolverilməzliyi haqda mövqeyi Azərbaycan Prezidentinin mövqeyi ilə tam üst-üstə düşür. Bu müddəa üzrə də mövqe Azərbaycanı qane edir.

Beləliklə, Azərbaycan Prezidentinin səsləndirdiyi əsas 3 etiraz məqamı üzrə Donald Tuskun səfərinin nəticələri Azərbaycanı qane edir. Və bir daha qeyd edək ki, bu nəticə Prezidentin təqribən son 1 ildə apardığı gərgin diplomatik mübarizənin nəticəsidir. Bu nəticələr Azərbaycanın maraqlarının qorunmasında əhəmiyyətli irəliləyiş deməkdir.

Yeri gəlmişkən, həmsədrlər də fəallaşıblar. ATƏT-in Minsk qrupunun həmsədrləri Ceyms Uorlik (ABŞ), Pyer Andryö (Fransa) və İqor Popov (Rusiya) regiona səfərlərinin yekunları ilə bağlı birgə bəyanat yaydılar. Bəyanatda Azərbaycan və Ermənistan prezidentlərinin bu ilin sonunda görüşəcəkləri haqda məlumat var. Bu, Dağliq Qarabağ münaqişəsinin nizamlanmasında yeni bir mərhələnin başlanmasıdır. Belə ki, ötən bir ildə əvvəlki illərdən fərqli olan yeni geosiyasi, yeni iqtisadi, yeni beynəlxalq hüquqi və nəhayət, yeni hərbi vəziyyət formalaşıb.

Yeni vəziyyətin konkret parametrləri belədir: Geosiyasi aspekt: Aİ və ABŞ-la Rusiya arasında siyasi və iqtisadi münasibətlər gərginləşib; Daxili sosial-iqtisadi və siyasi aspekt: Ermənistanda iqtisadi vəziyyət xeyli pisləşib və daxili siyasi qarşıdurmalar dövrü başlayıb. Qışa doğru onun daha da gərginləşəcəyi gözlənilir; Beynəlxalq hüquqi aspekt: ATƏT və Aİ münaqişələrin həllində ərazi bütövlüyünü əsas prinsip kimi qəbul edir və onu sənədlərdə təsdiqləyirlər; Hərbi aspekt: artıq 1 ildir ki, Ermənistanın cəbhədə vəziyyəti gərginləşdirmək cəhdləri onun məğlubiyyəti ilə nəticələnir. 2014-cü ilin iyul-avqustundakı «ongünlük gərginlikdən»dən sonra Azərbaycan Silahlı Qüvvələri cəbhə xəttində üstünlüyü ələ alıblar.

Azərbaycan Prezidenti bu yeni vəziyyətin imkanlarına uyğun çevik Qarabağ strategiyasını qurub. İndi bu yeni situasiyaya uyğun yeni strategiya masa üzərinə qoyulacaq.

**«Azərbaycan» qəzeti**
*28 iyul 2015-ci il*

2 | Vergilər Nazirliyində Kollegiya iclası keçirilib
3 | Qeyri-neft sektorunun inkişafı iqtisadiyyatın dayanıqlılığına təkan verir
4 | Sosial tərəfdaşların rolu müzakirə edilib
5 | Avropa İttifaqı ilə əməkdaşlığın yeni prioritetləri

# Vergilər Nazirliyində Kollegiya iclası keçirilib

*Vergilər Nazirliyində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-cü ilin birinci yarımilliyinin yekunları və qarşıda duran vəzifələrə bağlı 13 iyul tarixli iclasına həsr olunmuş kollegiya iclası keçirilmişdir.*

Vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə ictimai-siyasi sabitliyin möhkəmləndiyini, bütün sahələrdə olduğu kimi, iqtisadiyyatda aparılan islahatlar nəticəsində ciddi uğurlar əldə edildiyini, qanunun aliliyinin bərqərar olduğunu vurğulamışdır. Diqqəti vergi orqanlarında həyata keçirilən islahatlara yönəldən nazir vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsi, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə elektron xidmətlərin sayının və əhatə dairəsinin genişləndirilməsi, cəmiyyətdə vergi mədəniyyətinin formalaşdırılması istiqamətində atılan addımların nəticəsi olaraq vergi daxilolmalarının ilbeil artdığını, strukturda müsbət dəyişikliklər baş verdiyini, büdcə daxilolmaları üzrə proqnozların uğurla yerinə yetirildiyini vurğulamışdır.

Fazil Məmmədov Nazirlər Kabinetinin son iclasında Prezident İlham Əliyevin ayrı-ayrı vergi orqanlarının ünvanına səsləndirdiyi iradların qısa müddətdə aradan qaldırılması üçün artıq ciddi tədbirlər həyata keçirildiyini bildirmiş, neqativ hallara yol verilməməsi üçün zəruri işlərin görülməsi ilə bağlı tapşırıqlar vermişdir. Sahibkarların fəaliyyətinə süni maneələrin və qanunsuz müdaxilələrin yolverilməzliyini vurğulayan vergilər naziri vətəndaşlardan daxil olan ərizə və şikayətlərin daha diqqətlə araşdırılması, fəaliyyətində nöqsanlara yol vermiş vergi xidməti orqanı əməkdaşları barədə ciddi tədbirlər görülməsinin vacibliyini diqqətə çatdırmışdır.

Qeyd olunmuşdur ki, cəmiyyətdə vergi mədəniyyətinin səviyyəsinin yüksəldilməsi sahəsində səylər artırılmalı, vergi ödəyicilərinə xidmətlərin spektri və informasiya texnologiyalarının tətbiqi imkanları genişləndirilməli, vergi orqanlarının fəaliyyətində şəffaflıq tam bərqərar olmalı, qabaqcıl beynəlxalq təcrübədən daha geniş istifadə edilməlidir. Nazir bildirmişdir ki, vergi xidməti orqanı əməkdaşları öz öhdələrinə düşən vəzifələrin icrası zamanı daha məsuliyyətli olmalı, dövlətimizin vergi siyasətini uğurla həyata keçirməlidirlər.

Yekunda Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 13 iyul tarixli iclasındakı çıxışı zamanı vergi orqanlarına verilmiş tapşırıqlar 2015-ci ilin ikinci yarısı və qarşıdakı dövrlər üçün fəaliyyət planı kimi qəbul olunmuş, vergi inzibatçılığının optimallaşdırılması məqsədilə işçi qrupun yaradılması barədə qərar verilmişdir.

# Yeni işə qəbul olunmuş vergi xidməti əməkdaşları ilə görüş

*Vergilər Nazirliyində dövlət vergi orqanlarına işə qəbulla bağlı son müsabiqə zamanı uğur qazanaraq işlə təmin edilmiş yeni əməkdaşlarla görüş keçirilmişdir.*

Vergilər nazirinin müavini, dövlət vergi orqanlarına işə qəbul üzrə müsabiqə komissiyasının sədri, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahir Məmmədxanov yeni işə qəbul olunmuş stajçı vergi xidməti əməkdaşlarını təbrik edərək onlara işlərində uğurlar arzulamışdır. Bildirilmişdir ki, gənc kadrların potensialından düzgün istifadə və onların peşəkarlıq səviyyəsinin daim artırılması Vergilər Nazirliyi üçün prioritet məsələlərdəndir. Nazir müavini gənc kadrların öz üzərində daim işləmələrinin, intellektual səviyyələrini yüksəltmələrinin və fəaliyyətlərində qanunun aliliyini rəhbər tutmalarının vacibliyini xüsusi vurğulamışdır.

Yeni işə qəbul olunmuş stajçı vergi xidməti əməkdaşları adından çıxış edən Vergilər Nazirliyi Aparatının Protokol bölməsinin dövlət vergi müfəttişi Fərid Salmanov istər işə qəbul zamanı, istərsə də iş prosesində yaradılmış şəffaf şəraitə, ədalətli və bərabər imkanlara görə minnətdarlığını bildirmişdir.

Xatırladaq ki, 2005-ci ildən indiyədək dövlət vergi orqanlarına işə qəbulla bağlı 10 müsabiqə keçirilmiş, bu müsabiqələrdə iştirak üçün ümumilikdə 13.500 nəfər müraciət etmiş, onlardan 1834 nəfər test imtahanı mərhələsində uğur qazanaraq müsahibə mərhələsinə buraxılmış, müsahibələrdə namizədlərdən 1294-ü vakant vəzifələrə uyğun hesab olunaraq ehtiyat kadrlar siyahısına daxil edilmişdir. Bu günədək ehtiyat kadrlar siyahısında olan namizədlərdən 1119 nəfəri dövlət vergi orqanlarında işlə təmin olunmuşdur.



# Mərkəzi Bankın İdarə Heyəti yeni qaydaları təsdiq edib

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti «Kredit ittifaqlarının prudensial tənzimlənməsi Qaydaları»nı təsdiq edib.

Yeni qaydalara görə, kredit ittifaqının kapitalı 4000 manat məbləğindən az olmamalıdır. Kapitalın adekvatlıq əmsalı normativi ittifaqın fəaliyyətə başladığı vaxtdan bir il ərzində azı 0.25, sonradan isə 0.20 az olmalıdır. Verilmiş kreditlərin və hesablanmış faizlərin qaytarılması tarixləri isə kredit ittifaqının öhdəliklərinin icra müddətini qabaqlamalıdır.

Qaydalarda qeyd olunub ki, aktivlər və öhdəliklərin ödəniş müddətlərinin uyğunluğu normativi minimum 1 olmalıdır. Ödəniş müddətlərinin uyğunluğu normativi hesabat tarixinə aktivlərin cəminin öhdəliklərin cəminə nisbəti kimi ən azı 0-30, 31-90, 91-180, 181-365 və 365 gündən çox gecikdirilmiş öhdəliklər üzrə hesablanır və bu zaman kredit ittifaqı üzvlərinin vaxtı keçmiş kreditləri və onlara hesablanmış faizlər üzrə borc məbləğləri aktivlərin cəmində nəzərə alınmır.

Kredit ittifaqının bir üzvünə verdiyi kreditin maksimum məbləği kredit alan üzvün kredit ittifaqının nizamnamə kapitalında payının 10 mislindən və qarşılıqlı kredit fondu vəsaitlərinin 10 faizindən çox olmamalıdır. Kredit ittifaqının bir üzvünə verdiyi kreditin maksimum məbləğinin hesablanması zamanı onun kredit ittifaqına bu tarixə olan kredit öhdəlikləri üzrə əsas məbləğlərin qalıqları nəzərə alınır. Kredit ittifaqının öz üzvlərinə verdiyi təminatsız kreditlərin maksimum məbləği normativi 0.2-yə bərabər və ya ondan çox olmalıdır.

Qaydalara görə, kredit ittifaqı öz maliyyə vəziyyətini və əməliyyatlarının nəticələrini aydın və obyektiv təsəvvür etmək üçün bütün kreditləri rübdə ən azı bir dəfə qiymətləndirməli və fəaliyyəti nəticəsində dəyən zərəri ödəmək məqsədilə, kreditlərin təsnifatından asılı olaraq, xərclər hesabına xüsusi ehtiyatlar yaratmalıdır. Qiymətləndirmə zamanı kredit ittifaqı kreditləri təhlil edir, onları standart və qeyri-standart kreditlərə bölür. Standart kreditlərə «qənaətbəxş» kreditlər, qeyri-standart kreditlərə isə «qeyri-qənaətbəxş kreditlər», «təhlükəli kreditlər» və «ümidsiz kreditlər» aiddir.

Xüsusi ehtiyatlar təsnifat üzrə aşağıdakı məbləğdə yaradılır:

- «Qənaətbəxş kreditlər» - əsas məbləği və ya faiz borclarının qaytarılma müddəti müqavilədə müəyyən olunmuş tarixdən 30 günə qədər keçmiş kreditlərin əsas və faiz məbləğinin ödənilməmiş hissəsinin 0%-i həcmində olduqda; «Qeyri-qənaətbəxş kreditlər» - əsas məbləği və ya faiz borclarının qaytarılma müddəti müqavilədə müəyyən olunmuş tarixdən 31 gündən 90 günədək keçmiş kreditlərin əsas və faiz məbləğinin ödənilməmiş hissəsinin 30%-i həcmində; «Təhlükəli kreditlər» - əsas məbləği və ya faiz borclarının qaytarılma müddəti müqavilədə müəyyən olunmuş tarixdən 91 gündən 180 günədək keçmiş kreditlərin əsas və faiz məbləğinin ödənilməmiş hissəsinin 60%-i həcmində olduqda; «Ümidsiz kreditlər» - əsas məbləği və ya faiz borclarının qaytarılma müddəti müqavilədə müəyyən olunmuş tarixdən 181 gündən çox keçmiş qismən kreditlərin əsas və faiz məbləğinin ödənilməmiş hissəsinin 100%-i həcmində olduqda.

Kreditlərin qiymətləndirilməsi zamanı onların keyfiyyətinin yaxşılaşması müəyyən edildikdə artıq yaradılmış ehtiyatlar müvafiq xərclər hesabının kreditləşdirilməsi yolu ilə azaldılmalı və ya əvvəllər gəlirdən çıxılmış ehtiyatın azalmış məbləği gəlirə daxil edilməlidir.

**AYTƏN**

# Bələdiyyələr üçün yeni metodiki vəsait çap olunub

*«Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında» Qanunun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən, yerli vergi və ödənişlərin hesablanması və ödənilməsi sahəsində bələdiyyələrə metodiki rəhbərliyin göstərilməsi Vergilər Nazirliyinə həvalə olunub.*




Bununla əlaqədar bələdiyyə orqanları ilə aparılmış məlumatlandırma və maarifləndirmə işləri ilə yanaşı, müxtəlif metodiki görüşlər, normativ hüquqi sənədlər hazırlanıb. Həmin işlərin davamı olaraq, nazirliyin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi tərəfindən «Bələdiyyələrin vergi sistemi» adlı yeni metodiki vəsait hazırlanaraq çap edilib. Vəsait ölkə Konstitusiyasının, Vergi Məcəlləsinin, «Bələdiyyələrin statusu haqqında», «Bələdiyyələrin maliyyəsinin əsasları haqqında», «Yerli (bələdiyyə) vergi və ödənişlər haqqında» qanunların, «Bələdiyyələrin vergi xidməti orqanı haqqında Əsasnamə»nin və digər normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla hazırlanıb. Metodiki vəsait yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin və sahibkarlıq fəaliyyəti subyektlərinin uçota alınması, yenidən uçota alınması və uçotdan çıxarılması qaydalarını və yerli (bələdiyyə) vergi xidməti orqanlarının vəzifəli şəxslərinin hərəkətlərini müəyyən edir.

Metodiki vəsaitdə «Yerli (bələdiyyə) vergilərin ödəyicisi olan sahibkarlıq fəaliyyəti subyektlərinin uçota alınması haqqında ərizə»nin tərtib olunması qaydası, «Yerli (bələdiyyə) vergilərin ödəyicisi olan fiziki şəxsin elektron sənəd mübadiləsi haqqında ərizə» formasının doldurulması qaydası, elektron sənəd mübadiləsi haqqında müqavilə, qanunlardan çıxarışlar, yerli (bələdiyyə) vergilərin ödəyicisi olan fiziki şəxslərin uçota alınması üçün bələdiyyələr üzrə müəyyən edilmiş kodların siyahısı və s. barədə ətraflı məlumatlar yer alıb.

# Elektron-viza sisteminin tətbiqinə başlanılacaq

*«Elektron-hökumət» portalının Məlumat Hesablama Mərkəzindən bildirildiyinə görə, Azərbaycanda tezliklə «Elektron hökumət» portalının tərkibində elektron-viza sistemi tətbiq olunacaq.*

Qeyd edilib ki, vətəndaşlara 421 növdə elektron xidmət göstərən «Elektron hökumət» portalının tərkibində immiqrantlar üçün yeni bölmənin yaradılması planlaşdırılır. Gələcəkdə bu bölmənin funksiyaları genişləndiriləcək Azərbaycana gələn əcnəbilər üçün hətta ünsiyyət platforması da təqdim oluna bilər.

Hazırda ölkəmizdə e-viza Azərbaycan Xarici İşlər Nazirliyinin rəsmi saytında http://www.mfa.gov.az/anket təqdim edilir. E-viza anketini iki dildə - ingilis və Azərbaycan dillərində tamamlamaq mümkündür. Elektron-viza 3 həftə dəyərləndirildikdən sonra immiqrantın anketdə göstərdiyi elektron poçt ünvanına PDF formatında göndərilir. Bundan sonra isə immiqrant əldə etdiyi vizaya möhür vurdurmaq üçün aidiyyəti quruma yaxınlaşmalıdır.

Dünya təcrübəsində miqrasiya prosesinin sadələşdirilməsi məqsədilə aidiyyəti saytlarda viza üçün sorğu anketi təqdim edilir. E-viza sorğu anketində immiqrantın fərdi məlumatları ilə yanaşı, səfərin məqsədi və müddəti qeyd olunur. Həmçinin, xarici pasportun surəti yüklənilir, vizanın növü, turistik, işgüzar (biznes), rəsmi səfər, təhsil, müalicə, şəxsi (qohum və ya dostların ziyarəti), tranzit, idman yarışlarında iştirakı da qeyd edilir.

Viza üçün tələb olunan dövlət rüsumu sayt üzərindən plastik kartlar vasitəsilə elektron şəkildə ödənilir. Müəyyən edilən zaman ərzində (3-5 iş günü, Avropa ölkələrində 14 gün) anketdə göstərilən elektron ünvana verilən vizanın təsdiqi barədə bildiriş göndərilir.




# Özəlləşdirmə prosesində elektron hərracların tətbiqi

Əmlak Məsələləri Dövlət Komitəsi (ƏMDK) daşınmaz əmlakın qeydiyyatında çeviklik və müasirliyin artırılması məqsədilə bu ilin birinci yarısında 3 SMS xidməti istifadəyə verib. Eyni zamanda, «Kiçik dövlət müəssisələrinin (obyektlərinin) əmək kollektivi üzvlərinə güzəştli satışı» və «İxtisaslaşdırılmış pul hərraclarında sifarişlərin və sənədlərin elektron qəbulu» xidmətləri təqdim olunub.

Bu xidmətlər həm «Elektron hökumət» portalı (www.e-gov.az), həm də komitənin elektron xidmətlər portalı (www.e-emdk.gov.az) üzərindən göstərilir. Yeni elektron xidmətləri istifadəyə verməkdə məqsəd özəlləşdirmə prosesində elektron hərracların tətbiqini genişləndirməkdir.

Komitədən bildirilib ki, ƏMDK-nın fəaliyyət istiqamətləri üzrə göstərdiyi 31 e-xidmət vasitəsilə hüquqi və fiziki şəxslər tərəfindən 227 minədək e-müraciət daxil olub. Təqdim olunan e-xidmətlərdən 21-i daşınmaz əmlakın qeydiyyatı, 10-u isə dövlət əmlakının özəlləşdirilməsi, idarə edilməsi və icarəsi ilə bağlıdır. Bu xidmətlərin 27-si interaktiv, 4-ü isə informativ xidmətlərdir. Eyni zamanda, daşınmaz əmlakın qeydiyyatı sahəsində fəaliyyət göstərən mobil ofis xidmətləri vasitəsilə respublika üzrə vətəndaşlardan 45 min 500 müraciət qəbul edilib. Qeydiyyat sahəsində komitənin sosial tədbiri olan «Kütləvi çıxarış» kampaniyası çərçivəsində 3 min 800-ə yaxın vətəndaşın mülkiyyət sənədləri dövlət reyestrindən çıxarışlarla əvəz olunub. Kampaniya bu il Gəncə, Zaqatala, Beyləqan, Şamaxı və Şəkidə keçirilib.

# Qeyri-neft sektorunun inkişafı iqtisadiyyatın dayanıqlılığına təkan verir



*Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun şöbə müdiri, iqtisadiyyat üzrə fəlsəfə doktoru Aqil Əsədovun "Vergilər" qəzetinə müsahibəsi*

***- Aqil müəllim, bir müddət əvvəl Azərbaycanda keçirilən birinci Avropa Oyunları başa çatdı. Bu tədbir ölkəmizin sosial-iqtisadi həyatında hansı mühüm dəyişikliklərə səbəb oldu və qarşıdakı dövrdə nə kimi iqtisadi səmərə vəd edir?***

- İlk növbədə onu qeyd etmək istərdim ki, 50-yə yaxın ölkənin qatıldığı belə bir mötəbər tədbirə ev sahibliyi etmək olduqca məsuliyyətli və qürurvericidir. I Avropa Oyunlarının olduqca yüksək təşkilatçılıqla və uğurla başa çatması Azərbaycanın ən mötəbər yarışlara ev sahibliyi etməyə qadir olduğunu sübut etdi. Beynəlxalq aləm ölkəmizdə mövcud olan sabitliyi, əmin-amanlığı görür, və bizi etibarlı tərəfdaş kimi qəbul edir.

Təbii ki, belə tədbirlərin iqtisadi səmərəsi də böyükdür və çox mühüm sosial-iqtisadi və strateji əhəmiyyəti var. Oyunların keçirilməsindən turizm və digər bir sıra xidmət sahələri daha çox bəhrələndi. Hər idmançı ilə bir-iki nəfər turistin gəlməsi, jurnalistlər, reklamçılar və s. Mövcud standartlara görə, Azərbaycanda olan bir turistin həftəlik orta xərci 1000 dollar təşkil edir. Oyunların iki həftə ərzində keçirildiyini nəzərə alsaq, bir turistin 2000 dollarcivarında vəsait xərclədiyi aydın olur. Bu da milyonlarla manat vəsait deməkdir. Digər tərəfdən, mətbuatdan da məlum olduğu kimi, Oyunların xarici ölkələrdə yayımlanması ilə bağlı kifayət qədər müraciətlər daxil olmuşdur ki, bu da əlavə gəlir deməkdir. Oyunların keçirildiyi zallarda, meydançalarda müxtəlif reklamlar yerləşdirilmişdir ki, bu da kifayət qədər gəlir əldə etməyə imkan yaradıb. Ümumilikdə cari gəlirlərə biletlərin satışını, reklam və yayım gəlirlərini də aid etmək olar.

Oyunlardan əvvəl ən çox müzakirə olunan məsələlərdən biri də bu mötəbər idman tədbirinin ölkəmizdə keçirilməsinin manata olan tələbə necə təsir göstərməsi ilə bağlı idi. Qitədə ilk dəfə təşkil edilən bu Oyunlar milli valyutaya tələbin artmasına səbəb oldu. Turistlərin xarici valyutanı milli valyutaya çevirməsi manata tələbin artmasına və xarici valyuta təklifinin çoxalmasına, bununla da Mərkəzi Bankın intervensiya xərcinin azaldılmasına gətirib çıxardı. Bu isə Avropa Oyunlarının ölkəmizdə maliyyə sabitliyinin möhkəmləndirilməsinə töhfə verməsi kimi qiymətləndirilə bilər. Nəhayət, Oyunların keçirilməsindən iqtisadi baxımdan bəhrələnən tərəflərdən biri də kiçik və orta sahibkarlıq oldu. Turistlərin ölkəmizə gəlməsi ilə bağlı müxtəlif xidmətlərə tələb formalaşdı. Xidmətlərin əksəriyyətinin kiçik və orta sahibkarlıq subyektləri tərəfindən təklif edildiyini nəzərə alsaq, onda bu sahənin oyunlardan kifayət qədər bəhrələndiyini görə bilərik.

O ki qaldı strateji gözləntilərə, təbii ki, I Avropa Oyunlarının səmərəsini yalnız cari gəlirlərlə dəyərləndirmək düzgün olmazdı. Oyunlara xərclənən vəsaitin 75 faizdən çoxu infrastrukturların yaradılmasına və təkmilləşdirilməsinə sərf edilib. Yəni xərclənən vəsait Bakı və eləcə də bir sıra regionlarda infrastruktur təminatın yaxşılaşdırılmasına xidmət edib. Təbii ki, bütün bunlar Azərbaycana növbəti mötəbər tədbirlərə ev sahibliyi etməyə imkan verəcək. Bu zaman xərclər az olacaq, çünki artıq infrastruktur mövcuddur, gəlirlər isə çoxalacaq. Bildiyiniz kimi, 2017-ci ildə ölkəmizin İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edəcəyi rəsmən təsdiqlənib. Artıq Avropa mətbuatında Azərbaycan Yay Olimpiya Oyunlarına iddialı tərəf kimi təqdim olunur. Təbii ki, bütün bunlar ölkəmiz üçün böyük dividendlər vəd edir, mühüm iqtisadi-strateji əhəmiyyət kəsb edir.

***- Hazırkı qlobal böhran şəraitində əksər ölkələrdə iqtisadiyyatın zəifləməsi baş verir. 2015-ci ilin birinci yarısını başa vuran Azərbaycanın iqtisadi vəziyyətini necə qiymətləndirmək olar?***

- Aydındır ki, Azərbaycanda hər bir sahə üzrə düşünülmüş proqram var: iqtisadi inkişaf, sosial məsələlərin həlli, ekoloji proqram, neft-qaz sektorunun inkişafı, regional inkişaf proqramı, səhiyyə proqramı, təhsil proqramı və s. Demək olar ki, elə bir sahə yoxdur ki, orada bizim proqramımız olmasın. Eyni zamanda, ölkə başçısının fikirləri ilə ifadə etsək, bu proqramlar sadəcə olaraq, bir niyyət sənədi, şüar toplusu deyil, düşünülmüş, konkret tədbirlər planıdır. Danılmaz reallıqdır ki, güclü iqtisadiyyat tezisini əməli fəaliyyətində gerçəkləşdirən dövlət başçısının uzaqgörən siyasəti hər bir sahədə böyük uğurların əldə olunması ilə nəticələnir. O cümlədən 2015-ci ilin birinci yarısında da bu müsbət meyillər davam edib. Birinci yarımillikdə ümumi daxili məhsul 5,7 faiz artmışdır. Sevindirici hal ondan ibarətdir ki, bu müddətdə qeyri-neft sektoru 9 faizdən çox artmışdır. Bu da son illər ərzində aparılan düşünülmüş iqtisadi siyasətin bariz nəticəsidir.

Ötən illər ərzində Azərbaycan iqtisadiyyatına qoyulan vəsait, şaxələndirmə siyasəti, qeyri-neft sektorunun inkişafı imkan verir ki, iqtisadiyyatımızın dayanıqlılığı təmin olunsun. Hətta dünyada neftin qiymətinin kəskin şəkildə düşməsi də ölkəmizin ümumi iqtisadi inkişafına ciddi təsir etməyib. Hələ neftin qiymətinin yüksək olduğu dövrdə belə, ölkə başçısı, Azərbaycan hökuməti bugünkü vəziyyəti əvvəlcədən hiss edərək, qeyri-neft sektorunun inkişafını prioritet seçmişdir. Məhz bunun nəticəsidir ki, qeyri-neft sektorunda silsilə və dinamik uğurlar əldə edilməkdədir. Həyata keçirilən ardıcıl tədbirlər sayəsində kənd təsərrüfatı sahəsində 2015-ci ilin 6 ayında 7%-dən çox artım olmuşdur. Ölkəmizdə əhalinin gəlirləri inflyasiya səviyyəsini 2 dəfəyə qədər üstələyir, işsizlik və yoxsulluq ən aşağı - 5 faiz səviyyəsindədir və s. Azərbaycan iqtisadiyyatının xüsusiyyətləri ondan ibarətdir ki, bu, möhkəm təməl üzərində qurulub, özünü təmin edən iqtisadiyyatdır, xarici maliyyə resurslarından asılı deyil. Əksinə, biz indi donor kimi həm başqa ölkələrə, eyni zamanda, beynəlxalq maliyyə qurumlarına maliyyə resurslarımızı təklif edirik.

Azərbaycanın xarici dövlət borcu çox aşağı səviyyədədir və dünya miqyasında biz bu göstəriciyə görə ən qabaqcıl yerdəyik. Bütün bunlar ölkədə həyata keçirilən bir sıra layihələri daxili imkanlar hesabına reallaşdırmağa imkan verir.

***- Neftin ucuzlaşması ölkəmizin maliyyə-fiskal, monetar siyasətində hansı dəyişikliklərin edilməsi zərurətini meydana çıxarıb?***

- İxtisasca maliyyəçi olmasam da, çalışacağam ki, sualınızı bir iqtisadçı kimi cavablandıra bilim. Hələ neftin qiymətinin yüksək olduğu illərdə ölkəmizdə istər həyat səviyyəsi, istərsə də iqtisadi inkişaf baxımından olduqca mühüm əhəmiyyətə malik inflyasiya səviyyəsi yol veriləbilən həddə gətirilib. Artıq 10 ildən çoxdur ki, inflyasiya birrəqəmli səviyyədədir və əsasən 3-5% çərçivəsində dəyişir. Konkret olaraq, 2015-ci ilin birinci yarısında bu göstərici 3,2% təşkil etmişdir. Milli valyutanın alıcılıq qabiliyyətində də uzunmüddətli sabitlik təmin olunmuşdur. Bu baxımdan, neftin ucuzlaşması ilə bağlı hər hansı kəskin tədbirlərin reallaşdırılmasına lüzum yoxdur. Buna baxmayaraq, mövcud şəraitin tələblərinə uyğun addımların atılması da qaçılmazdır. Məsələn, milli valyutanın devalvasiyası qaçılmaz bir proses idi. Gələcəkdə isə tamamilə üzən valyuta sisteminə keçid də mümkündür. Ölkə başçısının da qeyd etdiyi kimi, maliyyələşmə istiqamətlərinə də yenidən baxıla bilər. Daha zəruri layihələrin dəstəklənməsi, bir sıra zəruri olmayan perspektiv layihələrin müəyyən qədər yubadılması da mümkündür.

***- Azərbaycan müasir iqtisadi çağırışlar astanasındadır. Neftdənkənar sahələrin uzunmüddətli inkişafı ilə bağlı müxtəlif ssenarilər hazırlanır. Gələcək iqtisadi inkişafın əsas ağırlıq mərkəzi kimi hansı sahələri perspektivli hesab etmək olar?***

- Klassik iqtisadiyyatda sənayeləşmə, fiziki məhsul istehsalı iqtisadiyyatın qan damarı, istehsal edilən əmtəəyə sahib olmaq zənginlik əlaməti sayılırdısa, müasir iqtisadiyyatda eyni fikirləri xidmət sektoruna şamil etmək olar. Bu gün xidmət sektoru perspektiv vəd edən sahə kimi dünya iqtisadiyyatında böyük cəlbediciliyə malikdir.

Dünya təcrübəsi, ölkəmizin mövcud potensial imkanları, təbii-iqtisadi və coğrafi mövqeyi də əsas verir ki, turizm, nəqliyyat-tranzit və s. xidmət sektorlarını müqayisəli üstünlüyə malik sahələr kimi qəbul edək. Bu mənada, bir halda ki, dünyanın inkişaf etmiş dövlətlərində ÜDM-in 60%-dən çoxu xidmət sahələrinin payına düşür və Azərbaycan qlobal məkana sürətlə inteqrasiya olunan, əksər göstəriciləri ilə öndə gedən bir ölkədir, onda müxtəlif xidmət sahələrinin inkişaf etdirilməsi qarşıda dayanan əsas perspektivlər kimi diqqət mərkəzində saxlanılmalıdır. Konkret olaraq, turizm, nəqliyyat, tranzit, rabitə və s. kimi xidmət sahələrini, sənayenin bir sıra istiqamətlərini (tikinti materialları, aqrar-sənaye, əczaçılıq sənayesi və s.) perspektivli sahələr kimi seçmək olar.

***- AMEA-nın İqtisadiyyat İnstitutu qeyri-neft sektorunun inkişafı ilə bağlı hansı təkliflərin və layihələrin hazırlanmasını məqsədəuyğun sayır?***

- Bizim institutda dövlət sifarişi əsasında qeyri-neft sektorunun müxtəlif sahələrinin inkişafı ilə bağlı genişmiqyaslı araşdırmalar aparılır. O cümlədən qeyri-neft sektorunun inkişafı, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi, həyat səviyyəsinin yaxşılaşdırılması və s. istiqamətlərə dair proqramlar, təklif və tövsiyələr hazırlanaraq müvafiq dövlət qurumlarına təqdim olunur. Bu işlər davamlı şəkildə həyata keçirilir. Rəhbərlik etdiyim Xidmət sahələrinin inkişaf problemləri şöbəsində 12 istiqamətdə araşdırmalar həyata keçirilir. Konkret olaraq, regionlarımızın turizm xidmətləri üzrə ixtisaslaşdırılmasını və bu sahəyə dəstək göstərilməsini zəruri hesab edirəm. Ölkəmizin zəngin tranzit imkanları nəzərə alınaraq, bu istiqamətdə proqram xarakterli fəaliyyət planının olması vacibdir. Azərbaycanda nəqliyyat sektoru, yol-nəqliyyat kompleksi sürətlə inkişaf edir. Bununla yanaşı, nəqliyyatın, xüsusilə avtomobil nəqliyyatının mənfi ekoloji təsirləri də artır ki, bu da müəyyən xəstəliklərin çoxalması, orta ömür müddətinin aşağı düşməsi və s. kimi hallara səbəb olur. Ona görə də nəqliyyat-ətraf mühit-sağlamlıq üzrə kompleks tədbirlər planının hazırlanması vacibdir.

Ölkəmiz I Avropa oyunları kimi mötəbər bir yarışa çox uğurla ev sahibliyi etdi. Artıq formalaşmış infrastruktur təminatı gələcəkdə daha mötəbər yarışlara ev sahibliyi etməyə imkan yaradacaqdır. Bunları nəzərə alaraq, turizmin inkişafı ilə bağlı uzunmüddətli proqramın hazırlanması məqsədəuyğun olardı və s.

***- İqtisadi inkişafın təmin olunmasında həyata keçirilən vergi siyasətinin rolunu necə qiymətləndirmək olar?***

- Ümummilli lider Heydər Əliyevin «Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik» kəlamı vergi siyasətinin rolunu tam mənası ilə ifadə edir. Bazar iqtisadiyyatı özəl sektorun inkişafını və dövlətin iqtisadi proseslərdə iştirakının minimumluğunu dəstəkləyir. Bu halda, dövlətin tənzimləyici funksiyaları önə çıxır ki, bunun da mühüm bir istiqaməti vergi siyasəti təşkil edir. Vergi dövlətin əsas dayağıdır. Dövlətin maliyyə dayağı olan, sosial-iqtisadi, təhlükəsizlik və s. istiqamətlərdə dövlət məqsədlərinin reallaşmasında əvəzsiz rol oynayan büdcə gəlirlərinin 85-87%-i də məhz vergilərin hesabına formalaşır. Bütün bunlar mükəmməl vergi siyasətinin cəmiyyət həyatında necə mühüm rol oynadığını ortaya qoyur.

***- Azərbaycanda qeyri-neft sektorunun inkişafını sürətləndirmək üçün vergi siyasətində hansı islahatların aparılmasını zəruri hesab edirsiniz?***

- Ümumiyyətlə, ölkəmizin vergi sistemi və siyasəti çox sürətlə təkmilləşir, cəmiyyətdə və iqtisadiyyatda baş verən dəyişikliklərə son dərəcə operativ şəkildə reaksiya verir. Vergilər üzrə, demək olar ki, vergi işçisi-sahibkar münasibətləri tamamilə elektronlaşdırılmışdır. Bu sistemdə İKT-dən istifadə, innovativ düşüncənin formalaşması və qəbulu çox sürətlə baş verir ki, bütün bunlar da alqışlanmalıdır. Bu yaxınlarda Vergilər Nazirliyinin Tədris Mərkəzində «Azərbaycan Respublikasının davamlı inkişafında vergilərin rolu» mövzusunda keçirilən konfrans da bunu bir daha təsdiq etdi. Bu mənada, dövlətimizin vergi siyasətini çevik və təkmil hesab edə bilərik.

Bütün bunlarla yanaşı, dünya təcrübəsi də göstərir ki, bazar münasibətləri şəraitində inzibati təsirlərə nisbətən stimullaşdırıcı tədbirlər daha effektli nəticə verir. Bunu nəzərə alaraq, vergi siyasətində də müəyyən stimullaşdırıcı tədbirlərin yer alması pis olmazdı. Bununla bağlı müxtəlif və çoxsahəli təkliflər nəzərdən keçirilə bilər. Məsələn, il ərzində ən çox işçisi olan, daha çox vergi ödəyən bir neçə sahibkarı hər hansı bir formada stimullaşdırmaq, müəyyən həddən yuxarı dövriyyəsi olanlara daha aşağı vergi dərəcəsi tətbiq etmək və s. kimi məsələlər nəzərdən keçirilə bilər. Ümumilikdə isə mən bir iqtisadçı kimi, heç bir sahənin vergidən azad edilməsini dəstəkləmirəm. Bunun əvəzində fəaliyyətin ilk illərində vergi tətilinin tətbiqini, sonralar isə «çox qazan, az ödə» və ya «çox məhsul istehsal et, az ödə» kimi prinsiplərə üstünlük verilməsini daha məqsədəuyğun hesab edirəm.

*Ötən illər ərzində Azərbaycan iqtisadiyyatına qoyulan vəsait, şaxələndirmə siyasəti, qeyri-neft sektorunun inkişafı imkan verir ki, iqtisadiyyatımızın dayanıqlılığı təmin olunsun*

**Müsahibəni hazırladı:**
**Elbrus CƏFƏRLİ**




## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Azərbaycan İpoteka Fondunun agent bankları tərəfindən indiyədək **17 min 228** ipoteka krediti verilib. Fondun vəsaitləri hesabına verilən ipoteka kreditləri üzrə məbləğ **695 milyon 610 min 428 manatdan** çoxdur.
- Azərbaycan Mərkəzi Bankının məlumatına görə, bu il iyunun 1-nə ölkə ərazisindəki ticarət və xidmət obyektlərində **78,324 min** ədəd POS-terminal quraşdırılıb ki, bunun da **49,815 mini** paytaxtın, **28,509 mini** regionların payına düşür.
- Ötən ay Bakı Elektrik Stansiyasında **40,4 milyon kilovat-saatdan** çox elektrik enerjisi istehsal edilib. Bu ilin 6 ayında isə istehsal **255,6 milyon kilovat-saatdan** artıq olub.
- Sığortaolunanların fərdi uçot sisteminin qurulması prosesində fərdi uçota alınanların sayı cari ilin 6 ayı ərzində **122,5 min** nəfər artaraq iyulun 1-nə kimi **3 mln. 98 min** nəfərə çatıb.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Gəlir vergisindən azadolma və güzəştlər

***Qarabağ müharibəsi veteranıyam, himayəmdə üç uşağım var. Bilmək istərdim ki, aldığım əməkhaqqı üzrə mənə hansı vergi güzəştləri şamil olunur?***

Fiziki şəxslərin gəlir vergisindən azadolmalar və güzəştlər Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (VM) 102-ci maddəsi ilə müəyyən edilmişdir. 102.2.7-ci maddəyə əsasən, qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı adı almış fiziki şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 400 manat məbləğində azaldılır.

VM-in 102.5-ci maddəsinə əsasən, qohumluq dərəcəsindən asılı olmayaraq himayəsində azı üç nəfər, o cümlədən gündüz təhsil alan 23 yaşınadək şagirdlər və tələbələr olan ər və ya arvaddan birinin vergi tutulmalı aylıq gəliri 50 manat məbləğində azaldılır.

Bu qayda uşaqların 18 yaşa, tələbələrin və şagirdlərin 23 yaşa çatdığı ilin sonunadək, habelə uşaqların və himayədəkilərin öldüyü hallarda ölüm ilinin sonunadək saxlanılır.

Fiziki şəxslərin vergi tutulan gəliri uşağın doğulduğu və himayədə olanın himayəyə götürüldüyü aydan başlayaraq azaldılır. Himayədə olanların sayı il ərzində azaldıqda (uşaqların ölüm halları istisna olmaqla) himayədə olanların sayının azaldığı aydan sonrakı aydan başlayaraq onların saxlanması üçün məbləğin çıxılmasına xitam verilir.

VM-in 102.8-ci maddəsinə görə, əməkhaqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin bu maddədə sadalanan vergi güzəştləri hüququ müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş sənədlərin təqdim edildiyi andan yaranır və yalnız fiziki şəxsin əsas iş yerində (əmək kitabçasının olduğu yerdə) həyata keçirilir.

Nazirlər Kabinetinin «Əməkhaqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısının təsdiq edilməsi barədə» 2001-ci il 4 yanvar tarixli 4 nömrəli qərarı ilə təsdiq olunmuş «Əməkhaqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı»nın 1.7-ci bəndinə əsasən, əməkhaqqından tutulan vergi hesablanarkən qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı adı almış şəxslərin güzəşt hüququ müharibə veteranı vəsiqəsi, Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin arayışı, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, Milli Təhlükəsizlik Nazirliyinin, Ədliyyə Nazirliyinin, Daxili İşlər Nazirliyinin arayışları, həmin siyahının 1.15-ci bəndinə əsasən himayədə olanlara görə əməkhaqqından tutulan gəlir vergisindən güzəşt ər və arvaddan birinin güzəştdən istifadə edib-etməməsi barədə onların əsas iş yerindən işəgötürənin arayışı, Vergilər Nazirliyinin təsdiq etdiyi formada yerli icra hakimiyyəti və ya bələdiyyə tərəfindən verilmiş arayışlar əsasında müəyyənləşdirilir. Qərarın 2-ci bəndinə əsasən, güzəşt hüququna malik olan şəxslər yuxarıda adları çəkilən sənədlərdən birini təqdim etməlidirlər.

Beləliklə, Qarabağ müharibəsi veteranı və eyni zamanda himayəsində üç uşaq olan fiziki şəxs yuxarıda qeyd olunan sənədləri əsas iş yerinə (əmək kitabçasının olduğu yerə) təqdim etməklə VM-in 102.2.7-ci, eyni zamanda 102.5-ci maddəsi ilə müəyyən olunmuş güzəştdən istifadə edə bilər.

# Sosial tərəfdaşların rolu müzakirə edilib

*İyulun 28-də Vergilər Nazirliyinin Şamaxı rayonunda yerləşən Tədris Mərkəzində "Vergi öhdəliklərinin yerinə yetirilməsində sosial tərəfdaşların rolu" mövzusunda "dəyirmi masa"*

Tədbirdə Vergilər Nazirliyinin, sahibkarların ictimai təşkilatlarının, qeyri-hökumət təşkilatlarının, icra strukturlarının, bələdiyyələrin nümayəndələri və sahibkarlar iştirak etmişlər.

Qeyd olunmuşdur ki, Vergilər Nazirliyinin əsas məqsədi vergidən yayınan şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi deyil, yayındırılmış vergi məbləğlərinin dövlət büdcəsinə ödənilməsidir. 2015-ci ilin 1-ci yarısında 508 iş üzrə 29,1 milyon manat məbləğində yayındırılmış vergi məbləğinin dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir. Vergilər Nazirliyinin başlıca hədəfi könüllü əməletmə sisteminin bütün vergi ödəyicilərini əhatə etməsinə nail olmaqdır. Könüllü əməletmə - vergi ödəyicilərinin vergi qanunlarına riayət etmələrini, gəlir məbləğlərini və vergi öhdəliklərini ədalətli, eyni zamanda dürüst bəyan etmələrini, gəlirləri barədə bəyannamələri vaxtında, sərbəst və könüllü şəkildə təqdim etməyə şərait yaradan, başqa sözlə, vergilərin vaxtında ödənilməsini aşılayan bir sistemdir. Bu məqsədlə Vergilər Nazirliyi vergi ödəyicilərinə göstərilən xidmətlərin, xüsusən elektron xidmətlərin əhatə dairəsini genişləndirməyi nəzərdə tutur.

Vergilər Nazirliyinin vergi ödəyiciləri ilə təmasında vətəndaş cəmiyyətinin, xüsusilə də sahibkarların ictimai



Tədbirdə çıxış edən vergilər nazirinin müşaviri Ələkbər Məmmədov bildirmişdir ki, müasir dövrdə vergilərin dövlət büdcəsinə vaxtında və tam həcmdə ödənilməsi, ilk növbədə, sosial tərəfdaşların dəstəyi ilə könüllü əməletməni təmin etməkdən keçir. Vergi öhdəliklərinin yerinə yetirilməsi ancaq vadaretmə deyil, vadaretmənin, xidmətin, könüllü səylərin, ünsiyyətin və maarifləndirmənin məcmusundan ibarətdir. Bildirilmişdir ki, Azərbaycanda vergi ödəyiciləri tərəfindən təqdim olunan bəyannamələrin indi 90%-dən çoxu elektron formada təqdim olunur ki, bu da həyata keçirilən islahatların, vergi sistemində tətbiq olunan informasiya-kommunikasiya texnologiyalarının yaratdığı imkanların hesabınadır.

birliklərinin, qeyri-hökumət təşkilatlarının, təhsil müəssisələrinin mühüm rolu qeyd edilmiş, gələcəkdə birgə layihələrin həyata keçirilməsinin zəruriliyi önə çəkilmişdir.

Sonra Vergilər Nazirliyinin nümayəndələri tərəfindən nazirlik tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlər, vergi borclarının alınması və s. mövzularda təqdimatlar edilmişdir.

Tədbir zamanı vergi orqanları və biznes arasında mövcud əlaqənin yeni forması olan korporativ əməletmə ətrafında geniş müzakirələr keçirilmiş, partnyorluq, qarşılıqlı faydalara söykənən dövlət-biznes münasibətlərinin qurulması istiqamətində aparılan işlər barədə fikir mübadiləsi aparılmışdır.

# "Asan imza" xidməti etimadı doğruldur

*Sadə və təhlükəsiz elektron vasitə olan "Asan imza"nın tətbiqi ölkəmizdə elektron xidmətlərin kütləviləşdirilməsi sahəsində yeni imkanlar yaradıb.*




***Yeni nəsil texnologiya***

«Asan imza» (Mobil ID) - istifadəçinin mobil telefon vasitəsilə autentifikasiyasını, sənədin elektron imzalanmasını və imzalayan şəxsin şəxsiyyətinin müəyyən edilməsini təmin edən xidmətdir. Başqa sözlə, "Asan imza" e-xidmətlərə daxil olan və rəqəmsal imzalar edən zaman kimliyimizi təsdiqləyir, elektron xidmətlər mühitinə giriş üçün təhlükəsizlik aləti hesab edilir. Vergilər Nazirliyi və mobil operator tərəfindən verilən bu imza bütün mövcud e-xidmətlərdən istifadəni mümkün edir. «Asan imza» texnologiyasının əsas üstünlükləri onun smart kartı oxumağa imkan yaratmasıdır. Bu xidmətin istifadəsi üçün autentifikasiya və elektron imzanın rəqəmsal açarlarının saxlanıldığı SİM kartla işləyən mobil telefonun olması kifayətdir.

***Yeganə təhlükəsiz vasitə***

Azərbaycanda «Asan imza» xidməti 2013- cü ilin may ayından istifadəyə verilib. Hazırda ölkənin hər üç mobil operatoru tərəfindən abunəçilərə «Asan imza» mobil identifikasiya xidməti göstərilir. «Asan imza» gücləndirilmiş elektron imza vasitəsi kimi qanunvericiliyə əsasən əl ilə edilmiş imzaya bərabər tutulmaqla yanaşı, təhlükəsizlik baxımından da çox əlverişlidir. İdentifikasiya və rəqəmsal imzalama yüksək səviyyəli texnologiya və müvafiq PİN-kodlar vasitəsilə qorunur. «Asan imza» SİM kartının üzərində «Asan imza PİN1», «Asan imza PİN2», «Asan imza PUK» təhlükəsizlik kodları var. «Asan imza PİN1» - sistemə autentifikasiya olunan zaman daxil edilir, «Asan imza PİN2» - elektron sənədlərin imzalanması zamanı istifadə olunur, «Asan imza PUK» isə «Asan imza» PİN kodları üç dəfədən artıq daxil edilərkən SİM nömrəsinin bloka düşməsi və ya «PİN1» və «PİN2» kodlarının dəyişdirilməsi zamanı istifadə olunur. PİN-kodlar itirildikdə və ya unudulduqda Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzinə (ASXM) müraciət etmək lazım gəlir və müraciət edən şəxsə mövcud rəqəmsal ID-kart ilə işləyən yeni PİN-kod təqdim olunur.

Mobil telefon e-imza smart kartı və kart oxuyucusu kimi eyni vaxtda istifadə oluna bilər. «Asan imza» ilə haker hücumuna məruz qala və ya pozula biləcək parol-məlumat bazası mövcud deyil. ID hər zaman istifadəçi ilə birlikdədir və uzaq məsafədə yerləşən məlumat bazasında saxlanılmır. Bu, «Asan imza»nın mobil rəqəmsal imzalar üzrə yeganə təhlükəsiz həll vasitəsi olmasını təmin edir.

***Sertifikat xidmətləri***

Mobil operator tərəfindən 3 növ «Asan imza» SİM kartı təqdim olunur: fiziki şəxslər üçün elektron imza kartı şəxsi istifadə üçün nəzərdə tutulmuşdur; hüquqi şəxslər və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, həmçinin dövlət qulluqçuları üçün nəzərdə tutulan elektron imza sertifikatları isə kommersiya və ya dövlət təşkilatını təmsil etmək və onun adından çıxış etmək səlahiyyətləri verir. Sertifikatların - autentifikasiya, şəxsi, iş, dövlət və bələdiyyə növləri var.

«Asan imza» xidmətindən istifadə etmək üçün müraciət edən şəxs əvvəlcə mobil operatorlardan «Asan imza» SİM kartını əldə etməli, sonra tələb olunan sənədlərlə və SİM kartla birlikdə Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzinə müraciət etməlidir. ASXM-də ərizəçi tərəfindən təqdim olunmuş sənədlərin düzgünlüyü yoxlanıldıqdan sonra müraciət etmiş şəxslə yazılı müqavilə bağlanılır və sertifikat verilir. Sertifikatın verilməsi üçün ərizəçi ilə müqavilə bağlanmazdan əvvəl ASXM onu sertifikatın və imza vasitələrinin istifadə qaydaları, hüquqi statusu və akkreditə vəziyyəti barədə məlumatlandırır. Hazırlanmış sertifikat ərizəçiyə kağız daşıyıcıda və elektron formada təqdim edilir. «Asan imza» sertifikatı istifadəçiyə bir iş günü ərzində verilir.

***Statistika...***

Bu ilin ikinci rübü ərzində Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi tərəfindən verilmiş sertifikatların sayı 13091 olub. Bunlardan 6552-si «şəxsi», 6090-i «iş», 449-u isə «dövlət və bələdiyyə» sertifikatları olub. Ümumilikdə isə 82642 «şəxsi», 78949 «iş», 6969 «dövlət və bələdiyyə» sertifikatları olmaqla «Asan imza» sertifikatlarının sayı 168560-a çatıb.

**AYTƏN**

# Vətəndaşlar haqqında məlumatın verilməsi qaydaları

*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) Kollegiyası «Vasitəçilik fəaliyyətinə xüsusi razılıq (lisenziya) almış hüquqi şəxslərin Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə haqqı ödənilən əmək fəaliyyətinə cəlb olunması ilə bağlı xarici hüquqi və ya fiziki şəxslərlə bağladıqları müqavilələrin təsdiq edilməsi və xarici ölkələrdə haqqı ödənilən əmək fəaliyyətinə cəlb etdikləri Azərbaycan Respublikasının vətəndaşları haqqında məlumatın verilməsi Qaydası»nı təsdiq edib.*

Qaydaya görə, hüquqi şəxslərin vətəndaşların xarici ölkələrdə haqqı ödənilən əmək fəaliyyətinə cəlb olunmaları ilə bağlı xarici hüquqi və ya fiziki şəxslərlə bağladıqları müqavilələr ƏƏSMN tərəfindən təsdiq edildikdən sonra onlar həmin müqavilələr əsasında Azərbaycan Respublikası vətəndaşlarını xarici ölkələrdə haqqı ödənilən əmək fəaliyyətinə cəlb edə bilərlər. Hüquqi şəxslər xarici ölkələrdə haqqı ödənilən əmək fəaliyyətinə cəlb etdikləri vətəndaşlar haqqında ƏƏSMN-ə, Xarici İşlər Nazirliyinə və Dövlət Miqrasiya Xidmətinə məlumat verməlidirlər. Miqrasiya Məcəlləsinin 59.5-ci maddəsinə əsasən, vasitəçilik fəaliyyətini həyata keçirən hüquqi şəxslərin göstərdikləri xidmətə görə əməkçi miqrantlardan haqq almalarına yol verilmir.

Qaydaya görə, işləmək üçün xarici ölkəyə göndəriləcək vətəndaşlarla bağlı bəzi öhdəliklər müqavilədə öz əksini tapmalıdır. Bunlara aiddir:

- vətəndaşın tibbi sığorta ilə əhatə olunması;
- konkret işlə təmin olunması;
- sosial müdafiələrinin beynəlxalq normalara uyğun təmin olunması;
- insan alverindən müdafiə də daxil olmaqla hüquqlarının beynəlxalq normalara uyğun qorunması;
- işləyəcəyi ölkənin qanunvericiliyinə uyğun olaraq viza, iş və yaşayış üçün icazə ilə təmin olunması;
- əmək şəraiti şərtləri və müqavilə vaxtından əvvəl pozulduqda işə cəlb olunmuş vətəndaşların xarici ölkədə hüquqi vəziyyəti.

Müqavilələrin təsdiq olunması üçün hüquqi şəxslər ƏƏSMN-ə ərizə və müqavilənin əslini təqdim etməlidirlər. Müqavilə xarici dildə olduqda, onun əsli ilə yanaşı, Azərbaycan dilinə tərcümə edilmiş və notariusda təsdiq olunmuş surəti də təqdim edilməlidir. Müqavilələrin təsdiqi və ya təsdiqindən imtina edilməsi ilə bağlı qəbul olunmuş qərar yazılı şəkildə 5 gün müddətində hüquqi şəxsə təqdim edilir. Müqavilədə vətəndaşların hüquq və azadlıqlarını məhdudlaşdıran müddəalar olduqda müqavilənin təsdiq edilməsindən imtina olunur. Vətəndaşın tibbi sığorta ilə əhatə olunması və konkret işlə təmin edilməsi göstərilmədikdə müqavilə təsdiq olunmur. Təsdiq edilmiş müqavilədə sonradan düzgün olmayan məlumatlar aşkar edildikdə və ya müqavilə şərtlərinə əməl olunmaması müəyyənləşdirildikdə müqavilə ləğv edilir.

**AYTƏN**

# Avropa İttifaqı ilə əməkdaşlığın yeni prioritetləri

*Ölkəmizdə səfərdə olan Avropa İttifaqı (Aİ) Şurasının prezidenti Donald Tusk Azərbaycanla bir sıra iqtisadi layihələr üzrə əməkdaşlığın davam etdirilməsinin və yeni imkanların səfərbər olunmasının vacibliyini bildirib. Qeyd olunub ki, Aİ növbəti illərdə kommersiya münasibətlərini daha da genişləndirmək və enerji, biznes, ticarət, maliyyə, vergi, gömrük, qiymətli kağızlar və digər sahələrdə Azərbaycana dəstəyini artırmaq niyyətindədir.*

Avropa İttifaqı gələcək iqtisadi inkişaf, daha müasir idarəetmə, elektron xidmət vasitələrinin tətbiqi və insan inkişafı ilə bağlı davamlı layihələrdə maraqlı və açıq olduğu üçün Azərbaycana öz təcrübəsini və köməyini təklif edir. Bu məqsədlə ölkədə həyata keçirilən islahatlara texniki və maliyyə dəstəyinin davam etdiriləcəyi vurğulanıb.



Qarşıdakı dövrdə iqtisadi əməkdaşlığın əsas prioritetlərinə sahibkarlıq və investisiya mühitinin yaxşılaşdırılması, gömrük xidmətinin təkmilləşdirilməsi, davamlı iqtisadi inkişafa dəstək, iqtisadi qanunvericilik ilə inzibati praktikanın yaxınlaşdırılması, enerji və nəqliyyat sektorlarında əməkdaşlığın gücləndirilməsi kimi vəzifələr daxildir. Güzəştli ticarət əlaqələri və açıq bazarın bərqərar olması, miqrasiya, eləcə də çirkli pulların yuyulmasına, kibercinayətkarlığa və korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlıq, yeni maliyyə mənbələrinin əldə olunması, Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlüyünə texniki kömək göstərilməsi də başlıca istiqamətlərdəndir. Sahibkarlıq fəaliyyətində rəqabət mühitinin yaxşılaşdırılması və antiinhisar sahəsində mövcud qanunvericiliyin təkmilləşdirilərək Avropa standartlarına uyğunlaşdırılması da gündəlikdə olan məsələlərdəndir. Azərbaycanın ticarət əməliyyatları prosedurlarının, idxal-ixrac sisteminin təkmilləşdirilməsi zəruri hesab edilir. Ölkəmizin ÜTT-yə üzv olması üçün bu sahələrdə islahatların aparılması olduqca vacibdir. Qurum bu sahədə qanunvericiliyin təkmilləşdirilməsinə də öz köməyini göstərməyə hazır olduğunu bəyan edib.

Aİ ilə əməkdaşlığın prioritetlərinə daxil olan məsələlər sırasında investisiya və vergi mühitinin daha da yaxşılaşdırılması, vergi münasibətlərinin inkişaf etdirilməsi və beynəlxalq təcrübənin tədqiqinin genişləndirilməsi sahəsində əməkdaşlığın davam etdirilməsi mühüm yer tutur. Hazırda Azərbaycanda qeyri-neft sektoruna sərmayə qoyan ölkələr arasında Aİ üzvlərinin payı təxminən 40%-dir. İndiyədək qurumun 17 ölkəsi ilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalanıb və bu istiqamətdə tədbirlər davam etdirilir. Yaxın müddətdə digər üzv ölkələrlə də saziş imzalanması nəzərdə tutulur.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) rəhbəri Rüfət Məmmədov yerli şirkətlərin Aİ ölkələrinin bazarlarına çıxışı üçün bəzi daxili prosedurların təkmilləşdirilməli olduğunu deyib. Bildirilib ki, Azərbaycan və Aİ arasında viza rejiminin sadələşdirilməsinə dair sazişin imzalanmasından sonra respublikanın Avropa məkanına inteqrasiyasının daha da genişlənməsi, iqtisadi əlaqələrin inkişaf etdirilməsi üçün əlverişli şərait yaranıb. Bu sənəd Avropa ölkələrinin respublikamızın qeyri-neft sektoruna yeni investisiya qoyuluşlarına stimul yaradır.

Aİ ilə əməkdaşlığın yeni mərhələsi vergi sisteminin müasirləşməsində, qabaqcıl texnologiyaların tətbiq edilməsində mühüm rol oynayır. İndiyədək tərəflər arasında vergi sistemində yeni texnologiyaların ən yaxşı nümunələrindən biri olan elektron audit sisteminin yaradılması sahəsində səmərəli əməkdaşlıq qarşıdakı mərhələdə əlaqələrin daha da genişlənməsi üçün əlverişli zəmin yaradır. Yeni tərəfdaşlıq strategiyası digər Avropa ölkələri ilə ikiqat vergitutmanın aradan qaldırılması sahəsində sazişlərin imzalanması baxımından da mühüm əhəmiyyət daşıyır.

**ELBRUS**

# Yeni təkliflər paketi hazırlanıb

*Azərbaycanda müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan informasiya və kommunikasiya texnologiyaları sahələrinin genişləndirilməsi, elmi tədqiqatlar aparılması üçün yaradılan Yüksək Texnologiyalar Parkının (YTP) fəaliyyətinin təşkili ilə bağlı təkliflər hazırlanıb.*

Təkliflərə əsasən, ölkəmizdə yüksək texnologiyalar ekosisteminin gələcək inkişafı üçün bir sıra yeni təşəbbüslər tətbiq olunacaq. Hazırda bununla bağlı işlər aparılır. Artıq Pirallahı adasında tikiləcək Yüksək Texnologiyalar Parkının baş planının və ümumi inşaat layihəsinin hazırlanması üçün texniki məsləhətçi olaraq Kanadanın «Hill İnternational» şirkəti ilə müqavilə imzalanıb.

«YT Park» MMC-dən bildirilib ki, Yüksək Texnologiyalar Parkının tikintisi məqsədilə ayrılmış ərazidə artıq birinci binanın inşasına başlanılıb. İlk mərhələdə «showroom» kimi istismara veriləcək bu bina gələcəkdə YTP tərəfindən həm də inzibati-təsərrüfat obyekti kimi istifadə olunacaq. Yaxın zamanda YTP-nin baş planının təsdiq edilməsindən sonra birinci fazaya daxil olan əsas binaların təməlqoyma mərasiminin keçirilməsi nəzərdə tutulub. Bundan sonra isə texnoparka ilk potensial investor rezidentlərin qəbuluna başlanılacaq.

# İqtisadiyyatın bütün sahələrində artım müşahidə olunur

*2015-ci ilin ilk yarısında Azərbaycanda ümumi daxili məhsul 5,7% artmış, sənaye istehsalında 3,8%, kənd təsərrüfatında 7,3%, rabitədə 10,7%, tikintidə 11,5%, nəqliyyatda 1,7%, ticarətdə 13,4%, ümumilikdə qeyri-neft sektorunda 9,2%-lik artım olmuş, ölkə iqtisadiyyatına 12,7 mlrd. manat həcmində investisiya qoyulmuşdur. Bu barədə İqtisadiyyat və Sənaye Nazirliyində 2015-ci ilin birinci yarısında görülmüş işlərə dair Kollegiya iclasında bildirilmişdir.*

Qeyd edilmişdir ki, ölkəmizdə həyata keçirilən sənayeləşmə siyasətinə uyğun olaraq, Sumqayıt Kimya Sənaye və Balaxanı Sənaye parklarında infrastrukturun yaradılması, Mingəçevir və Qaradağ sənaye parklarının təşkili sahəsində görülən işlər davam etdirilir. Sumqayıt Kimya Sənaye Parkında indiyədək 4 rezident qeydiyyatdan keçib və onlar tərəfindən 700 milyon manatdan çox investisiya qoyuluşu nəzərdə tutulur. Balaxanı Sənaye Parkında isə avtomobil şinlərinin bərpası, işlənmiş mühərrik yağlarının və plastik qabların təkrar emalı üzrə fəaliyyət göstərəcək 3 rezident qeydiyyatdan keçmişdir. Neftçalada sənaye məhəlləsinin təşkilinə hazırlıq işləri başa çatdırılmışdır və yaxın vaxtlarda tikinti işlərinə başlanılacaq. Ölkənin digər regionlarında da sənaye parklarının və məhəllələrinin yaradılması istiqamətində araşdırmalar aparılır.

Kollegiya iclasında sahibkarlığın inkişafının sürətləndirilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində görülmüş işlər və nəzərdə tutulan tədbirlər də müzakirə edilmişdir. Qeyd olunmuşdur ki, 2015-ci ilin birinci yarısında əsas hissəsi qaytarılmış vəsaitlər olmaqla sahibkarlara 97 mln. manat həcmində güzəştli kreditlər verilmişdir. Sahibkarlığın inkişafının stimullaşdırılması, özəl bölmənin inkişafına dövlət dəstəyinin daha da gücləndirilməsi məqsədilə güzəştli kreditlərin faiz dərəcəsinin aşağı salınmasına dair təkliflər hazırlanmışdır.

***2015-ci ilin birinci yarısında əsas hissəsi qaytarılmış vəsaitlər olmaqla sahibkarlara 97 mln. manat həcmində güzəştli kreditlər verilmişdir***

İclasda 2015-ci ilin birinci yarısında kənd təsərrüfatında 7,3% artıma nail olunduğu, bu sahənin inkişafında və ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində xüsusi əhəmiyyət kəsb edən iri fermer təsərrüfatlarının və aqroparkların yaradılması istiqamətində işlərin davam etdirildiyi vurğulanmışdır. Bildirilmişdir ki, indiyədək 30 min hektar sahəni əhatə edən 19 iri fermer təsərrüfatı yaradılmış, müasir suvarma sistemləri qurulmuşdur. Artıq fəaliyyətdə olan təsərrüfatlarda taxıl biçini başa çatdırılmış, hər hektarından 60 sentner arpa və 57 sentner buğda tədarük edilmişdir. Şəmkirdə və Yalamada aqroparkların təşkili işləri davam etdirilir, Xızıda aqroparkın yaradılmasına başlanılmışdır.

Kollegiya iclasında diqqət mərkəzində olan məsələlərdən biri də biznes mühitinin daha da yaxşılaşdırılması məqsədilə həyata keçirilən tədbirlər olmuşdur. Qeyd edilmişdir ki, sahibkarlıq subyektlərinin elektron qeydiyyatı sayəsində prosedur və müddətlər azaldılmış, korporativ idarəetmənin və kiçik paya malik səhmdarların hüquqlarının qorunması təkmilləşdirilmiş, tikintiyə icazələrin verilməsi və idxal-ixrac əməliyyatları üçün mövcud prosedur, müddət və xərclər azaldılmış, elektrik təchizatı şəbəkəsinə qoşulma üçün sənədlərin elektron qəbulu təşkil olunmuşdur. Bununla yanaşı, kreditlərin verilməsi prosesinə təsir edən təsisatların fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən özəl kredit bürolarının və daşınar əmlakın yüklülüyü reyestrinin yaradılması, daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatı üçün tələb olunan müddətin, elektrik təchizatı şəbəkəsinə qoşulma üçün prosedur, müddət və xərclərin azaldılması və s. məsələlər üzrə işlər davam etdirilir.

**AYTƏN**

# Regionlarda məşğulluq səviyyəsi yüksəlir

## "Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası 2015-ci ilin ilk altı ayında uğurla davam etdirilib

*Ölkə iqtisadiyyatının şaxələndirilməsi, qeyri-neft sektorunun və regionların inkişafının davamlılığının təmin edilməsi, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması sahəsində aparılan işlər daha da canlandırılıb, bölgələrin hərtərəfli inkişafı sahəsində əhəmiyyətli dəyişikliklər baş verib.*

Yarım il ərzində regionlarda 48 mini daimi olmaqla 60 minə yaxın yeni iş yeri açılıb. Yeni iş yerləri iqtisadiyyatın sənaye, kənd təsərrüfatı, infrastruktur, təhsil, səhiyyə, mədəniyyət, idman, informasiya-kommunikasiya texnologiyaları, sosial infrastruktur, turizm və digər sahələrini əhatə edib.

Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyevin bəyan etdiyi kimi, bölgələrdə sosial-iqtisadi və infrastruktur layihələrinin həyata keçirilməsi geniş miqyas alıb. Bütün rayonlarda quruculuq, tikinti-abadlıq, təmir-bərpa işləri, yeni istehsal sahələrinin yaradılması intensiv şəkildə davam etməkdədir: *«Azərbaycanda, ümumiyyətlə, son 12 il ərzində 1 milyon 400 min iş yeri açılmışdır ki, onlardan 1 milyonu daimi iş yeridir. Bunun hesabına Azərbaycanda işsizlik keçən ilin yekunlarına görə 5 faiz səviyyəsində olmuşdur. Bütün mötəbər beynəlxalq maliyyə qurumları Azərbaycanda işsizliklə, yoxsullaqla bağlı mübarizəni çox yüksək qiymətləndirir. Biz və Azərbaycan xalqı bunu gündəlik həyatda görürük. Hesab edirəm ki, iş yerlərinin açılması daimi proses olmalıdır, çünki əhali artır və potensial kifayət qədər böyükdür».*

2015-ci ilin ilk altı ayında ölkədə yeni yaradılmış 3364 müəssisənin yarıdan çoxu regionlardadır. Lənkəran-Astara, Aran və Gəncə-Qazax iqtisadi rayonlarında daha çox müəssisələr yaradılıb. İqtisadiyyat və Sənaye Nazirliyindən bildirildiyinə görə, altı ayda bölgələrdə həyata keçirilən kredit yarmarkaları nəticəsində yüzlərlə sahibkar maliyyə vəsaiti ilə təmin olunub və onların əksəriyyəti yeni müəssisələr yaradıblar. Kənd təsərrüfatı və emal sənayesinin inkişafı üçün aqrar kredit təşkilatları tərəfindən verilmiş kreditlər bu sahədə yeyinti-emal, xidmət sahələrinin yaranması üçün əsas mənbə olub.

Regionlarda yaradılan iş yerlərinin böyük əksəriyyəti qeyri-neft istehsal sahələrini əhatə edir və ilk yarım ildə bu sektorda artım 9,3% təşkil edib.

Qeyd etmək yerinə düşər ki, regionların kredit resursları ilə təminatı həm dövlətin birbaşa sərmayələri və güzəştli kreditləri, həm də özəl maliyyə-kredit təşkilatları, kommersiya banklarının vəsaitləri hesabına öz həllini tapmaqdadır. Hər il büdcədən regionların inkişafına iki milyard manata yaxın vəsait xərclənir. Cari ilin dövlət büdcəsindən birinci yarım il ərzində regionların inkişafına 1,2 milyard manat vəsait sərf edilib.

2015-ci ilin altı ayı ərzində regionlara kredit təşkilatları və banklar tərəfindən yönəldilmiş kredit portfelinin ümumi həcmi 2 milyard manata yaxın olub. Vəsaitlərin böyük hissəsini, təxminən 1 milyard 700 milyon manatını yerli investorların vəsaitləri təşkil edib. Regionlara inyönəldilən dövlət sərmayələri və kreditlər innovativ sahibkarlığın stimullaşdırılmasına, yeni sənaye və aqrar-sənaye, emal, müasir kənd təsərrüfatı layihələrinin həyata keçirilməsinə, sənaye məhəllələrinin, texnoparkların və biznes-inkubatorların yaradılmasına istiqamətləndirilir. Bölgələrdə 150-dən artıq sənaye obyektinin istifadəyə verilməsi, Sumqayıt Texnologiyalar Parkının, Sumqayıt Kimya Sənayesi, Balaxanı Sənaye və Yüksək Texnologiyalar parklarının, Neftçalada sənaye məhəlləsinin, Xaçmazda biznes inkubatorunun yaradılması istiqamətində görülən işlər məhz regionlara yönəldilən kredit və sərmayələrin bəhrəsidir.

Regionlardakı qeyri-neft ehtiyatlarının istehsal imkanlarını artırmaq, istifadə olunmamış iqtisadi və təbii resursları istehsala cəlb etmək, elmtutumlu rəqabətqabiliyyətli milli istehsalı formalaşdırmaq, elmin istehsala inteqrasiyasını daha da gücləndirmək əsas strateji tədbirlər hesab olunur.



*Sahibkarlığa Kömək Milli Fondunun güşətli kreditləri regionlarda çalışan sahibkarlar üçün əsas maliyyə mənbələrindən biridir. Fond hər il 250-300 milyon manat güzəştli şərtlərlə kredit verir.*

*Kənd Təsərrüfatının İnkişafına Yardım Kredit Agentliyinin xətti ilə də aqrar sahədə fəaliyyət göstərən sahibkarlara hər il 50 milyon manata yaxın kredit ayrılır. Digər kredit təşkilatları, banklar və maliyyə institutlarının da verdiyi güzəştli kreditlərin həcmi 50-100 milyon dollar təşkil edir.*

*Xarici investorlar tərəfindən il ərzində regionlardakı qeyri-neft sahələri ilə bağlı iri layihələrə 1 milyard dollara yaxın sərmayə qoyulur.*

*Beləliklə, il ərzində bütün mənbələr hesabına regionlara 4 milyard manatdan çox vəsait yönəldilir.*

**Elbrus CƏFƏRLİ**

# Dünya Bankı Azərbaycanla əməkdaşlığa böyük önəm verir

*Dünya Bankının təsdiq etdiyi Azərbaycanla əməkdaşlıq strategiyası 2015-2020-ci illəri əhatə edir. «Ölkə tərəfdaşlıq çərçivəsi» adlı sənəd tərəflər arasında islahatların yeni istiqamətlərini nəzərdə tutur. Əsas məzmunu davamlı inkişafı nəzərdə tutan bu strategiya azad bazar iqtisadiyyatının inkişaf etdirilməsində Azərbaycana dəstək vermək məqsədi daşıyır.*



Əvvəlki beşillik strategiyada olduğu kimi, qarşıdakı mərhələdə də əməkdaşlığın əsas prioritetlərini iqtisadiyyatın qeyri-neft sektorunun möhkəmləndirilməsi, kənd təsərrüfatının və özəl sektorun inkişafı, sosial xidmətlərin səmərəliliyinin artırılması, səhiyyə, təhsil, sosial müdafiə və su təchizatının gücləndirilməsi təşkil edəcək. Bundan əlavə, regionlarda infrastrukturun yaxşılaşdırılması da sənədin əhatə etdiyi istiqamətlərdəndir.

Dünya Bankının regional direktoru Henry Kerali bildirib ki, yeni strategiyanın əsas məqsədi insan inkişafını və Azərbaycanda yoxsulluğun azaldılması fonunda insanların sosial rifahının yüksəldilməsi istiqamətində atılan addımları dəstəkləməkdir. Qeyd edilib ki, DB ilə Azərbaycan arasında ötən 15 il ərzində birgə əməkdaşlıq çərçivəsində yoxsulluğun azaldılması sahəsində mühüm irəliləyişlərə nail olunub.Yoxsulluq səviyyəsi 2000-ci illərin əvvəllərində 50% təşkil etdiyi halda, hazırda 5%-dir. Bu nailiyyət həmin illərdə yüksək neft gəlirlərinin artımı fonunda sosial sahəyə dövlət xərclərinin həcminin artırılması və müxtəlif sosial tədbirlərin həyata keçirilməsi nəticəsində mümkün olub. Neft gəlirlərinin regionlarda qeyri-neft sahələrinə yönəldilməsi və davamlı regional inkişaf proqramlarının həyata keçirilməsi də insanların işlə təmin edilməsinə, yoxsulluq səviyyəsinin aşağı düşməsinə öz müsbət təsirini göstərib.

Dünya Bankı yaxın illərdə qlobal iqtisadi dəyişikliklərin davam edəcəyini və bu amilin bir sıra ölkələr üçün sınaq xarakteri daşıyacağını bildirərək, Azərbaycan hökumətinə iqtisadiyyatın şaxələndirilməsi və sosial xidmətlərin möhkəmləndirilməsi üçün daha ciddi addımlar atmağı tövsiyə edib. Neft istehsalının azalması və qlobal qeyri-müəyyən iqtisadi dəyişikliklər mühitində özəl sektor və azad biznes başlıca inkişaf mənbəyi rolunu oynamalıdır. Təsdiqlənmiş strategiyaya əsasən, hökumət yaxın beş ildə yol xəritəsini rəqabətqabiliyyətli iqtisadiyyata əsaslanan imkanların səfərbər olunmasına yönəltməlidir. Dünya Bankı Azərbaycanda qeyri-neft sahələrinin inkişafı, xüsusilə də sənaye texnoparklarının, biznes inkubatorlarının, klasterlərin və yeni iqtisadi layihələrin reallaşmasında, yeni aqrar-sənaye və aqropark modellərinin yaradılmasında texniki dəstək göstərəcək, bu tipli layihələrin maliyyələşdirilməsində iştirak edəcək.

Əməkdaşlığın istiqamətlərindən biri də dövlət-biznes münasibətlərinin şəffaflaşdırılması və dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlıdır. Bu məqsədlə «Elektron hökumət» proqramı çərçivəsində inzibati maneələrin aradan qaldırılmasına səbəb olan e-xidmətlərin daha da genişləndirilməsi, azad biznes fəaliyyəti, lisenziyalaşdırma və icazələr kimi proseslərin səmərəliliyinin artırılması, qabaqcıl beynəlxalq təcrübənin təşviq olunması, idxal-ixrac əməliyyatlarında «bir pəncərə» sisteminin təkmilləşdirilməsi nəzərdə tutulur.

Dünya Bankının aparıcı maliyyə strukturlarından olan Beynəlxalq Maliyyə Korporasiyası (BMK) isə bank və maliyyə sektoruna kredit ayırmağı, kiçik və orta sahibkarlığa maliyyə dəstəyini artırmağı planlaşdırır. Bundan əlavə, BMK kommersiya banklarına ipoteka kreditləri məqsədilə maliyyə yardımı da göstərəcək.

**Elbrus CƏFƏRLİ**

# Kreditlərin reklamına dair yeni tələblər

*Bu günlərdə qüvvəyə minmiş «Reklam haqqında» yeni Qanun istehlak kreditlərinin reklamındakı boşluqların aradan qaldırılması baxımından xüsusi əhəmiyyət daşıyır.*

Qanunçuluğun təsbit etdiyi yeni tələblər kredit təşkilatlarını kreditlərin şərtləri barədə əvvəlcədən müştərilərə məlumat verməyə məcbur edir: kreditin ümumi xərcinə daxil olan istənilən xərclər, o cümlədən illik faiz dərəcəsi, faktiki illik faiz dərəcəsinin hesablanmasına qanunvericiliyə müvafiq qayda da daxil olan digər xərclər; kreditin müddəti; kredit müəyyən malın alınması və ya xidmətlərin göstərilməsi ilə əlaqədar verildikdə - həmin mal və ya xidmət, onun nağd qiyməti və ilkin ödənilən məbləğ; kredit müqaviləsinin bağlanması üçün əlavə xidmət müqavilələrinin bağlanması məcburi olduqda və həmin xidmətin qiyməti əvvəlcədən müəyyən edilə bilinmədikdə - həmin müqaviləni bağlamaq öhdəliyi.

Bütün bu məlumatlar aydın şəkildə oxuna bilən ölçülərdə yayımlanmalıdır.

# “Android” əməliyyat sistemi istifadəçilərinə xəbərdarlıq

*Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Elektron Təhlükəsizlik Mərkəzi xəbərdarlıq edib ki, təhlükəsizlik tədqiqatçıları «Android» əməliyyat sistemi üçün yeni həyəcan doğuran eksploit aşkar ediblər: «2.2» və «5.1» versiyalı əməliyyat sistemlərini istifadə edən qurğuların təxminən 95 faizinin təhlükəsizliyi zəifdir.*

Aşkar olunan eksploit MMS və ya multimedia faylı göndərməklə qurğunu ələ keçirmək imkanı yaradır.

Hazırda «Android» qurğularının demək olar ki, hamısında bu həssaslıq var və istənilən qurğu onun sahibinin xəbəri olmadan kiberhücuma məruz qala bilər. «Ekspert Drake» tərəfindən hazırlanmış eksploitlə MMS formatında xüsusi şəkildə yaradılan mətn mesajı vasitəsilə sistemi ələ keçirmək olar. Mesaj hədəfə göndərildiyi zaman qurğunun sahibinin heç bir əməliyyat həyata keçirməsi lazım gəlmir. Mobil nömrəyə göndərilən zərərli mesaj telefonda heç bir göstərici tələb olunmadan ziyanverici proqramın işə düşməsini və hədəfin ələ keçirilməsini təmin edir.

«Android» əməliyyat sisteminin yuxarıda qeyd olunan versiyalarının artıq bir müddətdir ki, «Google» tərəfindən dəstəklənməməsi istifadəçiləri daha böyük təhlükə altında qoyur. Bu kritik təhlükəsizlik zəifliyinin qarşısının alınması məqsədilə «Android» istifadəçilərinin öz qurğularının əməliyyat sistemini yeniləmələri və yeni versiya sistemdən istifadə etmələri tövsiyə olunur.

# Sığorta bazarında artım müşahidə olunub

*Azərbaycan Sığortaçılar Assosiasiyasından verilən məlumata görə, 2015-ci ilin ilk yarısında 27 sığorta şirkətinin xətti ilə 242,4 milyon manat sığorta haqqı toplanıb ki, bu da 2014-cü ilin eyni dövrünə nisbətən 14,3% çoxdur. Yarım il ərzində sığorta şirkətlərinin həyata keçirdiyi ödənişlər 92,1 milyon manat (ötən ilin eyni dövrü ilə müqayisədə 40,8% çox) təşkil edib, sığorta bazarında toplanmış hər 100 manat sığorta haqqının müqabilində 38 manat (2014-cü ilin yanvar-iyun aylarında 30,9 manat) ödəniş olunub.*

2015-ci ilin ilk yarısında ən ciddi artım kreditlərin sığortasında qeydə alınıb. Bu növ sığortadan toplanan sığorta haqqı 28,9 dəfə artaraq 436,9 min manat təşkil edib. Bundan başqa, su nəqliyyatı vasitələrinin sığortasında yığım 6,8 dəfə artaraq 2 milyon manat, kənd təsərrüfatı heyvanlarının sığortasında isə 6,6 dəfə artaraq 1,2 milyon manat olub.

***Həyat sığortası bazarı***

2015-ci ilin birinci yarısında toplanmış sığorta haqlarının 27,2%-i və yaxud 65,9 milyon manatı həyat sığortasının payına düşüb. Bununla 2014-cü ilin eyni dövrü ilə müqayisədə həyat sığortası bazarı 17,5% böyüyüb.

Həyat sığortasındakı yığımların təxminən 56,3%-i və ya 37,1 milyon manatı yaşam sığortasının, 31,9%-i və ya 21 milyon manatı istehsalatda bədbəxt hadisələrdən sığortanın, 11,5%-i və ya 7,6 milyon manatı ölüm halından sığortanın, cəmi 0,3%-i və ya 162,2 min manatı isə sağalmaz xəstəliklərdən sığortanın payına düşüb.

Yarım il ərzində həyat sığortası üzrə ödənişlərin məbləği 30,6 milyon manat təşkil edib. Ümumi ödənişlərin 33,3%-ni təşkil edən bu məbləğ 2014-cü ilin eyni dövrünə nisbətən 8,8 dəfə çoxdur. Bu sığorta növü üzrə ödənişlərin təxminən 90,5%-i və ya 27,7 milyon manatı yaşam sığortasının, 5,8%-i və ya 1,8 milyon manatı ölüm halından sığortanın, 3,7%-i və ya 1,5 milyon manatı isə istehsalatda bədbəxt hadisələrdən sığortanın payına düşüb. Sağalmaz xəstəliklərdən sığorta üzrə ödəniş olunmayıb. İlk altı ayda həyat sığortası bazarında toplanmış hər 100 manat sığorta haqqının müqabilində 46,5 manat ödəniş həyata keçirilib.

***Qeyri-həyat sığortası bazarı***

Yanvar-iyun aylarında Azərbaycanda toplanmış sığorta haqlarının 176,5 milyon manatı və ya 72,8%-i qeyri-həyat sığortasının payına düşüb. Bu, keçən ilin eyni dövrünə nisbətən bu növ sığorta bazarının 13,2% böyüməsi deməkdir. Yığımların 23,8%-i və ya 42 milyon manatı tibbi sığortanın, 20,4%-i və ya 36,1 milyon manatı avtomobillərin icbari sığortasının, 10,3%-i və ya 18,2 milyon manatı daşınmaz əmlakın icbari sığortasının, 9,4%-i və ya 16,6 milyon manatı əmlakın yanğından və digər risklərdən sığortasının, 8,9%-i və ya 15,7 milyon manatı kasko sığortasının, qalan 27,2%-i və ya 48 milyon manatı isə qeyri-həyat sığortasının digər növlərinə aiddir.

Yarım ildə sığorta ödənişlərinin 66,7%-ni və ya 61,5 milyon manatını qeyri-həyat sığortası təşkil edib ki, bu da 2014-cü ilin eyni dövrü ilə müqayisədə 0,7% azdır.

Qeyri-həyat sığortası üzrə ödənişlərin 39,6%-i və ya 24,3 milyon manatı tibbi sığortaya, 25%-i və ya 15,4 milyon manatı avtomobillərin icbari sığortasına, 19,8%-i və ya 12,2 milyon manatı kasko sığortasına, qalan 15,6%-i və ya 9,6 milyon manatı isə qeyri-həyat sığortasının digər növlərinə aid olub. Qeyri-həyat sığortası bazarında toplanmış hər 100 manat sığorta haqqının 34,8 manatı ödəniş edilib.

***Sığorta bazarında könüllü ödəmə***

2015-ci ilin ilk altı ayında Azərbaycanda toplanmış sığorta haqlarının 63,3%-i və ya 153,3 milyon manatı (ötən ilin eyni dövrü ilə müqayisədə 8,2% çox) könüllü sığorta növlərinin payına düşüb.

İcbari sığorta növlərində yığım 89,1 milyon manat və ya bazarın 35,7%-i qədər olub. Ötən ilin eyni dövrünə nisbətən icbari sığorta bazarında 26,7% böyümə qeydə alınıb. Yarım ildə ümumi ödənişin 77,7%-i və ya 71,6 milyon manatı (ötən ilin eyni dövrünə nisbətən 55,7% çox) könüllü sığorta növlərinə aid olub.

İcbari sığorta növləri üzrə ödəniş 20,5 milyon manat və ya ümumi bazarın 22,3%-ni təşkil edib. Bu rəqəm ötən ilin eyni dövrünə nisbətən 5,7% çoxdur. Könüllü sığortadan toplanmış hər 100 manat sığorta haqqı müqabilində 46,7 manat ödəniş edilib. 2014-cü ilin eyni dövründə bu göstərici 32,5 manat olub. İcbari sığortadan toplanmış hər 100 manat üzrə ödəniş 27,6 manatdan 23 manata düşüb.

Yarım il ərzində sığorta növləri arasında ən ciddi azalma kənd təsərrüfatı bitkiləri məhsullarının sığortasında qeydə alınıb: toplanan sığorta haqqı 40% azalaraq 204,2 min manat olub. Bundan başqa, yüklərin sığortasında yığım 15,2% azalaraq 6,1 milyon manat, auditorların peşə məsuliyyətinin sığortasında isə 14,3% azalaraq 4139 manat təşkil edib.

**Fəxriyyə İKRAMQIZI**

## vergi təqvimi

| İYUL | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | 1 | 2 | 3 | 4 | 5 |
| 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 |
| 21 | 21 | 22 | 23 | 24 | 25 | 26 |
| 27 | 28 | 29 | 30 | 31 | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

15 iyul - «(1)» və «(2)».

21 iyul - «(1-1)», «3», «4», «8», «9», «10.1», «10.2», «10.3» və «11».

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

*Birinci metod:* Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

*İkinci metod:* Cari rübdəki gəlirin məbləği keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda, vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)»- Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür. Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

beynəlxalq panoram

# BVF Macarıstana dolayı vergilərin sayını azaltmağı tövsiyə edib



*Macarıstan hökuməti bir sıra maliyyə müəssisələrinə, o cümlədən energetika xidmətləri və telekommunikasiya təchizatçıları, pərakəndə ticarət və reklam şirkətlərinə xüsusi vergilər tətbiq edir.*

Proqnozlara görə, 2015-ci ildə bu vergilərdən daxil olacaq büdcə gəlirlərinin ümumi daxili məhsulda (ÜDM) xüsusi çəkisi 1,9 faiz təşkil edə bilər ki, onların da əksər hissəsi (ÜDM-in 1,2 faizi) məhz maliyyə müəssisələrindən əldə olunacaq.

BVF 2015-ci il üçün Macarıstana dair məruzəsində qeyd edib ki, bu sahələrə müəyyən edilmiş vergilər ölkənin vergi siyasətinin sadəliyini poza, həmçinin özəl investisiyalar və inkişaf üçün rentabelliyi aşağı sala bilər. Qurum macar hökumətini vergi ödənişləri ilə bağlı məsələlərin həllinə çağırıb və qeyd edib ki, əlavə dəyər vergisi (ƏDV) ilə bağlı yayınmaların azaldılması, potensial olaraq, 2015-2020-ci illər arasında gəlirləri ÜDM-in 0,9 faizi həcmində artıra bilər. Fond Macarıstana ƏDV-nin tətbiq edilən dərəcə saylarını 3-dən 2-yə qədər azaltmağı, korporativ gəlir vergisini, idman və əyləncə sahələri üçün güzəştləri, eləcə də dizel yanacağı və tütün üçün aksiz güzəştlərini ləğv etməyi tövsiyə edib. Bu tədbirlər növbəti beş il ərzində gəlirləri ÜDM-in, müvafiq olaraq, 0,2-0,4 faizi həcmində artıra bilərdi.

BVF Macarıstan hökumətini büdcə konsolidasiyası həyata keçirdiyi üçün tərifləsə də, qeyd edib ki, hökumətin indiki planları ortamüddətli perspektivdə dövlət borcunun xeyli aşağı düşəcəyinə zəmanət vermir. Proqnozlara görə, 2015-ci ildə Macarıstanın büdcə kəsiri ÜDM-in 2,7 faizi qədər azalacaq.

# Məşhur şirkətin vergi strategiyası narazılıq doğurur

*Qəhvə satışı üzrə dünyanın tanınmış «Starbucks» şirkətinin vergi strategiyası Avropa İttifaqının rəsmi dairələrində şübhələr yaradır. Son bir neçə il ərzində yüz milyonlarla dollar gəlir əldə etməsinə baxmayaraq, «Starbucks» şirkəti vergi orqanlarına təqdim etdiyi hesabatlarda davamlı olaraq Avropa bazarlarında zərərlə üzləşdiyini bəyan edib.*

Yalnız 2014-cü ildə Avropa Birliyi bununla bağlı rəsmi araşdırmaya başladığı zaman şirkətin Amsterdamdakı Avropa bölməsinin baş ofisi 407 milyon avro (446 milyon dollar) gəlir əldə etməsi haqqında hesabat verib. Şirkət bu gəlirləri İsveçrədəki törəmə şirkətinin 502 milyon İsveçrə frankı məbləğində (527,8 milyon dollar) dividentlər alması ilə izah edib. Rəsmi sənədlərə görə, şirkətin qəhvə satışı üzrə ixtisaslaşmış İsveçrə bölməsində cəmi 40-a yaxın əməkdaş çalışır.

Araşdırmanı aparan Avropa Komissiyasının rəqabət məsələləri üzrə komissarı Marqret Vestaqer bildirib ki, kiçik bir bölmənin bu qədər böyük gəlir əldə etməsi «Starbucks» şirkətinin Avropada vergi ödəmələri ilə bağlı fəaliyyətinə şübhələr yaradır.

# Avstraliya depozit vergisi tətbiq edəcək

*Dünya maliyyə bazarında hökm sürən böhrana görə, müxtəlif ölkələrin mərkəzi bankları tərəfindən depozitlər üzrə mənfi tarif dərəcələri tətbiq olunmağa başlanıb. Maliyyə tənzimçilərinin sistemli şəkildə tarif dərəcələrini sıfırdan aşağı salmağa başlaması (məsələn, Danimarka Mərkəzi Bankı tarif dərəcəsini ardıcıl şəkildə dörd dəfə aşağı salıb) bütün dünyada pul-kredit siyasətinin pisləşməkdə olmasına dəlalət edir.*

Mərkəzi banklar bu yolla əmanət yığımlarının cəlbediciliyini azaltmağa çalışırlar. Məqsəd istehlakçıları qazanılmış vəsaitləri xərcləməyə və ya daha böyük kreditlər götürməyə sövq etməkdir.

Avstraliyanın federal hökuməti bank depozitlərinə vergi tətbiq etmək niyyətindədir. Bank depozitlərinə vergi haqqında ideya leyboristlər tərəfindən irəli sürülmüşdü və hazırkı baş nazir Toni Ebbot tərəfindən tənqidə məruz qalmışdı. Lakin son iki il ərzində çox şey dəyişib. Maliyyə nazirinin müavini Djoş Fraydenberq bildirib ki, hökumət mövqeyini dəyişib və bu vergi növbəti ilin büdcəsinin qəbulundan əvvəl tətbiq edilə bilər. «Bu məsələ ilə bağlı qərarlar büdcənin qəbulu ərəfəsində veriləcək. Bu il büdcə ilə bağlı sərt qərarlar gözlənilir, amma yaxşı xəbərlər də olacaq», - D.Fraydenberq qeyd edib.

Xarici ölkələrin təcrübəsi

# Cənubi Koreyada digər vergilər

**Əhali vergisi** - Koreyada şəhər və ya dairələrdə yaşayan fiziki şəxslər və ya bu ərazilərdə idarələri olan müəssisələr tərəfindən ödənilən adambaşına düşən vergidir. Adambaşına verginin məbləği şəhər və ya dairələrdə ünvanı olan fiziki şəxslər üçün 8 avroyadək, şəhər və ya dairədə sahibkarlıq fəaliyyəti obyekti olan fiziki şəxslər üçün isə 40 avroyadək təşkil edir. Müəssisənin kapitalının dəyərindən və əməkdaşlarının sayından asılı olaraq, bu verginin dərəcəsi 40 avro ilə 400 avro arasında dəyişir.

2011-ci ildən sahibkarlıq fəaliyyətinin yeri vergisi əhali vergisi ilə birləşdirilmişdir. Sahibkarlıq fəaliyyəti obyektinin ölçüsündən asılı olaraq, tutulan əhali vergisi həmin sahənin hər kvadratmetrinə 0,20 avro olmaqla yerli orqanlar tərəfindən hər ilin iyul ayında tutulur. İşçilərin əməkhaqqından tutulan əhali vergisi isə (50-dən az işçisi olanlar istisnadır) aylıq əməkhaqqının 0,5%-nə bərabərdir.

Koreyada vergi bəyannamələrinin təqdim edilməsi öhdəliyi yoxdur. Vergi orqanları tərəfindən bildiriş təqdim olunduqdan sonra vergi ödənilməlidir.

**Təhsil vergisi** - bank və sığorta fəaliyyəti ilə məşğul olan rezidentlərdən tutulan milli vergidir. Bu vergi ümumi gəlirin 0,05%-ni təşkil edir.

Aksiz, malların əldə edilməsi zamanı ödənilən vergi, qeydiyyat və lisenziya vergisi, istirahət vergisi, adambaşına düşən əhali vergisi, əmlak vergisi, tütün məhsullarının istehlakı vergisi, avtomobil vergisi, alkoqollu içkilər vergisi, nəqliyyat, enerji və ekoloji vergi ödəyiciləri də təhsil vergisinə cəlb olunur.

**Gəlir vergisi üzrə**

| Vergiyə cəlb olunan məbləğ (milyon KRV ilə) | Marjinal dərəcə (%-lə) |
|---|---|
| 12-dək | 0,6 |
| 12-46 | 1,5 |
| 46-88 | 2,4 |
| 88-300 | 3,8 |

**Mənfəət vergisi üzrə**

| Vergiyə cəlb olunan məbləğ (milyon KRV ilə) | Marjinal dərəcə (%-lə) |
|---|---|
| 200-dək | 1 |
| 200-20 000 | 2 |
| 20 000 çox | 2,2 |
| 100 KRV = 0,0932 avro | |

**Yerli gəlir vergisi** - 2009-cu ildən etibarən tətbiq olunur. Yerli gəlir vergisi üçün vergitutma bazası gəlir vergisi haqqında qanun və mənfəət vergisi haqqında qanunla müəyyən edilmiş vergitutma bazası ilə eynidir. Vergitutma dərəcəsi müvafiq fiziki şəxslərin gəlir vergisi dərəcələrinin və mənfəət vergisi dərəcələrinin 1/10-nə bərabərdir. Qlobal gəlirlər üzrə yerli gəlir vergisi dərəcələri və mənfəət vergisi dərəcələri aşağıdakı kimidir:

1 yanvar 2014-cü il tarixdən müəssisələrin ödəmə mənbəyində vergisi ilə yanaşı, faizlərdən ödəmə mənbəyində yerli gəlir vergisinə 10% dərəcə ilə əlavə yığım tətbiq edilir.

**Əmlak vergisi** - əmlakın hazırkı standart dəyərinin 70%-nə (torpaq sahələri, tikililər), 60%-nə (binalar) və 100%-nə (su və hava nəqliyyatı vasitələri) aşağıdakı dərəcələr tətbiq edilməklə tutulur:

| Əmlak | Dərəcə (%-lə) |
|---|---|
| Torpaq sahələri | 0,2-4 |
| Tikililər | 0,25-4 |
| Binalar | 01-4 |
| Su nəqliyyatı vasitələri | 0,3 və ya 5 |
| Hava nəqliyyatı vasitələri | 0,3 |



Daşınmaz əmlaka tam sahiblik vergisi - yaşayış binalarına (villalar istisna olmaqla) və torpağa tətbiq olunur. Bu vergi əmlak vergisi öhdəliyi daşıyan şəxslərdən və əmlakın məcmu dəyəri (dövlət tərəfindən müəyyən edilən dəyər əsasında) aşağıda qeyd olunan məbləğdən çox olduqda tutulur:

- yaşayış binaları üçün 485.000 avro;
- ümumi məcmu vergitutmaya aid edilən torpaqlar (ümumi kombinə edilmiş əmlak vergisi dərəcələri) üçün 405.000 avro;
- ayrıca məcmu vergitutmaya aid edilən torpaqlar (xüsusi kombinə edilmiş əmlak vergisi dərəcələri), məsələn, mağazalar, ofislər, tikililərə bitişik torpaqlar və s. üçün 6.500.000 avro.

Vergi dərəcələri yaşayış binaları üçün 0,5% və 2%, ümumi kombinə edilmiş əmlak vergisi dərəcələrinə aid edilən torpaqlar üçün 0,75% və 2% və xüsusi kombinə edilmiş əmlak vergisi dərəcələrinə aid edilən torpaqlar üçün isə 0,5% və 0,7% arasında dəyişir.

*Rubrika üçün materialları Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord



**Yuxarıdan aşağı:**
1.Triqonometrik funksiya: hipotenuzun qonşu katetə olan nisbətinə deyilir; 2.Görüş; 3.Sirk səhnəsi; 4.Xaçmaz rayonunda qəsəbə; 5.Açıq dənizdə və ya okeanda dayaz laqunanı əhatə edən alçaq mərcan adası; 6. Dini ibadət zamanı işlədilən əşya; 9.Qədim Misir əfsanəsinə görə, külək və bərəkət (məhsuldarlıq) tanrısı; 13.Mineral; 15.Rəsmi orqanların, yaxud idarələrin siyahısı, reyestri; 16.Dərman preparatlarının buraxılış forması; 17.Hərbi xidmətçinin rəhbərliyinə verdiyi şifahi və ya yazılı məlumat; 18.Kimyəvi element (qaz); 20.Sakit okeanda ada dövlət; 21.Yoluxma, çirklənmə mənasını verən tibb termini.

**Soldan sağa:**
1.İlgək şəklində yuxarı aparan burum-burum dağ yolu; 5.Yoxlama nəticəsində müəyyən edilmiş hər hansı faktı təsdiq edən sənəd, yazı; 7.Avstraliyanın paytaxtı; 8.İdman növü; 10.Məşhur İspan dramaturqu, nasiri, rejissoru və rəssamının soyadı. İspaniyada bələdiyyə; 11.Şərab üzrə mütəxəssis, dequstator; 12.Azərbaycan aktyoru, aparıcı və şoumenin adı; 14.Antarktidada ən uzun çay; 19.ABŞ-da ştat; 21.Eramızdan əvvəl 738-696-cı illərdə Frikiya çarı; 22.Ankaranın mərkəzində meydan; 23.XIX əsr Fransa yazıçısı, müasir kiçik hekayənin banisi; 24.Ölkəmizdə ali təhsil müəssisələrindən birinin qısaldılmış adı; 25.Dəniz nəqliyyat vasitəsi.



*İlgək şəklində yuxarı aparan burum-burum dağ yolu*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.İzirtu;2.Metilen; 3.Quran; 4.Alanka;5.Maori; 6.Şəfiqə; 9.Arif (Şirvani); 13.İmla; 15.Admiral; 16.«Əkinçi»; 17.Hamlet; 18.Kriket; 20.Paris; 21.Pikap; **Soldan sağa:** 1.İmmiqrant; 5.Maş; 7.İnterval; 8.Torf ; 10.Talon; 11.Kartinq; 12.Əncir; 14.İflas; 19.Kapella; 21.Pamir (dağları); 22.Nərd; 23.Elektrik; 24.«İRS»; 25.Avtopilot.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi:
Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor:
Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini:
Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22
Ünvan:
AZ 1141, Bakı ş.,
Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon:
012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 14000

idman

# Futbol üzrə dünya çempionatının püşkü atıldı




*İyulun 25-də Sankt-Peterburqdakı Konstantinovski sarayında 2018-ci ildə Rusiyanın ev sahibliyi edəcəyi futbol üzrə XXI dünya çempionatının seçmə mərhələsinin püşkatma mərasimi keçirilib.*

Tədbirdə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, FİFA prezidenti Yozef Blatter, idman mütəxəssisləri, futbolçular iştirak ediblər. Azərbaycandan AFFA-nın prezidenti Rövnəq Abdullayev, İcraiyyə Komitəsinin üzvü Vaqif Sadıqov və baş katib Elxan Məmmədov da mərasimə qatılıblar.

Püşkatmaya görə millimiz dünya çempionatının seçmə mərhələsində «C» qrupunda mübarizə aparacaq. Komandamız Almaniya, Çexiya, Şimali İrlandiya, Norveç və San-Marino yığmaları ilə görüşəcək. Püşkatmanın nəticələrinə görə Avropanı təmsil edən 52 yığma 9 qrupa bölünüb. Bunların yeddisində altı, ikisində isə beş komanda yer alıb. Qrupların qalibləri dünya çempionatının final mərhələsinə birbaşa yüksələcək. İkinci yerləri tutan dörd cütlük isə pley-off mərhələsində oynayacaq. Ən aşağı göstəriciyə malik olacaq ikinci yeri tutan komanda isə final mərhələsində oynamaq şansını itirəcək. Rusiya ev sahibi kimi dünya çempionatının finalına birbaşa vəsiqə qazanıb.

Yeri gəlmişkən, artıq oyunların təqvimi də müəyyənləşib. Millimiz gələn il 4, 2017-ci ildə isə 6 oyun keçirəcək. Yığma komandamızın ilk görüşü gələn il sentyabrın 4-də səfərdə San-Marino millisi ilə olacaq. Bundan başqa, 2016-cı il oktyabrın 8-də Azərbaycan-Norveç, oktyabrın 11-də Çexiya-Azərbaycan, noyabrın 11-də isə Şimali İrlandiya-Azərbaycan qarşılaşmaları keçiriləcək. Yığmamız 2017-ci il martın 26-da dünya çempionu Almaniya millisi, iyunun 10-da isə Şimali İrlandiya komandasını qəbul edəcək. Bundan başqa, sentyabrın 1-də Norveç-Azərbaycan, sentyabrın 4-də Azərbaycan-San-Marino, oktyabrın 5-də Azərbaycan-Çexiya, oktyabrın 8-də isə Almaniya-Azərbaycan görüşləri təşkil olunacaq.

# "Naxçıvan Kuboku" Azərbaycanda qaldı

***İyulun 23-də Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş gənclər arasında sərbəst güləş üzrə «Naxçıvan Kuboku» uğrunda beynəlxalq yarışın qaliblərinin mükafatlandırılma mərasimi keçirilib.***




Turnirin «A» yarımqrupunda Azərbaycan, İran, Gürcüstan və Özbəkistan, «B» yarımqrupunda isə Naxçıvan, Türkiyə, Qazaxıstan və Rusiya komandaları qüvvələrini sınayıblar. Qrup görüşlərinin nəticələrinə görə, Azərbaycan və Rusiya yığmaları öz yarımqruplarında birinci yeri tutduqları üçün final qarşılaşmasında məhz bu komandalar mübarizə aparıblar. Keçirilən görüşlərin nəticəsinə əsasən, Azərbaycan birinci, Rusiya isə ikinci yerin sahibi olub. Gürcüstan komandası isə həlledici mərhələdə Türkiyə yığmasını məğlub edərək üçüncü yerə layiq görülüb.

Beləliklə, artıq ənənə halını almış bu beynəlxalq turnirin qalibi Azərbaycan komandasına qızıl medallar və kubok, ikinci və üçüncü yerin sahiblərinə isə diplomlar və müvafiq olaraq gümüş və bürünc medallar təqdim olunub. Bundan əlavə, komandalara müvafiq yerlər üzrə pul mükafatları da verilib.

# Mariya Stadnik ən güclü olduğunu bir daha sübut etdi

*Varşavada qadın güləşi üzrə «Poland Open» 19-cu beynəlxalq turnir keçirilib. Yarışda iştirak edən Azərbaycanın qadın pəhləvanları 1 qızıl, 1 gümüş və 2 bürünc medal qazanıblar.*



Yığma komandamızın kapitanı, 48 kiloqram çəki dərəcəsində mübarizə aparan Mariya Stadnik bütün rəqiblərinə təmiz qələbə ilə qalib gələrək qızıl medal qazanıb.

Turnirdə 58 kiloqram çəki dərəcəsində yarışlarda Yuliya Ratkeviç ardıcıl olaraq İsveç və Türkiyədən olan rəqiblərini tam üstünlüklə məğlub etsə də, macar rəqibinə uduzub. Rəqibin finala çıxması ilə təsəlliverici görüşlərə qatılan güləşçimiz Bolqarıstan və Macarıstan təmsilçilərinə qalib gələrək bürünc medal qazanıb.

İrina Netreba (60 kq) ilk görüşdə məğlub olsa da, rəqibin finala çıxması ilə təsəlliverici görüşlərə qatılmaq şansı əldə edib. Bu şansdan istifadə edən güləşçimiz bütün görüşlərdə qalib gələrək, bürünc medal qazanıb.

Nadya Muşka (63 kq) da finala qədər inamla irəliləyib. Ancaq finalda rəqibinə məğlub olan idmançımız yarışı gümüş medalla tamamlayıb.

mozaika

## Zəlzələyə davamlı yapon evi

texnologiya



Yaponiyanın «Hideaki Takayanagi Architects» memarlıq şirkətinin mütəxəssisləri ölkədə torpaq sahəsinin bahalığını nəzərə alaraq, kiçik ərazidə tikilə biləcək evin layihəsini hazırlayıblar. «Life in Spiral» adlandırılan 4 mərtəbəli yaşayış evinin sahəsi 109 kvadratmetrdir. Ev bütünlüklə polad nazik təbəqələrdən quraşdırıldığından xeyli yüngüldür.

Ekspertlərin qənaətinə görə, ölkə ərazisində tez-tez zəlzələ baş verdiyindən bu tip evlərə ehtiyac daha çoxdur. Binanın iki fasadı tamamilə şüşədən ibarətdir. Birinci mərtəbədə kabinet, ikincidə isə qonaq və mətbəx otaqları yerləşir. Ev 3-cü mərtəbəsində yataq və vanna, sonuncu mərtəbədə isə daha 2 yataq otağına malikdir.

## Kibercinayətkarlar üçün "sürpriz"



Biometrik autentifikasiya sistemlərinin tərtibatçısı «Synaptics» şirkəti barmaq izlərinin skan edilməsi üçün yeni məhsulun istifadəyə verildiyini açıqlayıb. Texnologiyanın noutbuk və digər qurğularda tətbiqi planlaşdırılır. Barmaq izlərinin tanınması üçün spesifik ötürücü təkmilləşdirilmiş təhlükəsizlik sistemi sayəsində mobil ödənişlərin artımını stimullaşdıracaq.

Ötürücü barmaq izini skan etməyə, nəticələri saxlamağa və yeni skanın qurğunun yaddaşında olan nümunə ilə uyğunluğunu yoxlamağa imkan verir. Onun yerləşmə spesifikliyi barmaq izlərini daha etibarlı saxlamağa şərait yaradır. Beləliklə, kibercinayətkarlar noutbuk və ya smartfona müdaxilə edərlərsə, barmaq izlərinə daxil ola bilməyəcəklər. Biomarkerlərin skan edilməsi və saxlanılması elektronikaya ziyan vura biləcək təhlükələrdən qoruyur.

## Qəbələ VII Beynəlxalq Musiqi Festivalı

incəsənət



İyulun 25-də Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Azərbaycanda növbəti möhtəşəm incəsənət bayramının - VII Qəbələ Beynəlxalq Musiqi Festivalının təntənəli açılış mərasimi olub.

Qəbələ şəhərindəki Heydər Əliyev Konqres Mərkəzinin qarşısındakı parkda keçirilən mərasimdə əvvəlcə Azərbaycanda musiqi mədəniyyətinin inkişafı və təbliğində müstəsna rol oynayan Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın festival iştirakçılarına ünvanladığı təbrik məktubu oxunub.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, festivalın bədii rəhbəri, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, xalq artisti Fərhad Bədəlbəyli çıxış edərək, bu möhtəşəm musiqi bayramında iştirak etmək üçün dünyanın müxtəlif yerlərindən ölkəmizə gəlmiş qonaqları, istedadlı ifaçıları, musiqiçiləri salamlayıblar. Bildirilib ki, Azərbaycan mədəniyyətinin təbliğinə xidmət edən bu festival həm də ölkəmizin musiqi ənənələrinin dünyada tanıdılması üçün bir vasitədir.

Azərbaycan öz musiqi mədəniyyəti ilə hər zaman fərqlənir. Heydər Əliyev Fondu ölkəmizin musiqi irsinin qorunub saxlanılması və təbliği yolunda bir sıra iri layihələr həyata keçirir. 2009-cu ildən ənənəvi olaraq hər il keçirilən bu musiqi festivalı ölkəmizdə və onun hüdudlarından kənarda böyük əks-səda doğurur. İyulun 25-dən başlayaraq qədim Qəbələ şəhəri Heydər Əliyev Fondunun möhtəşəm beynəlxalq layihəsi olan bu musiqi festivalına yenidən ev sahibliyi edir. İyulun 31-dək davam edəcək VII Beynəlxalq Musiqi Festivalında Azərbaycandan və xarici ölkələrdən görkəmli musiqiçilər, bədii kollektivlər, solistlər, dirijorlar iştirak edəcəklər. Bu il Üzeyir Hacıbəylinin 130 illik yubileyi qeyd olunur. Bu festival çərçivəsində dahi bəstəkarın əsərləri səsləndiriləcək. Festivalda iştirak edən İtaliya Simfonik Orkestri bəstəkar Üzeyir Hacıbəylinin əsərlərini ifa edəcək.

Çıxışlardan sonra İtaliya Simfonik Orkestrinin möhtəşəm konserti olub. Konsertdə Ü.Hacıbəylinin «Koroğlu» operasından uvertüra, M.Maqomayevin, C.Rossininin, K.Sen-Sansın, J.Bizenin, P.Maskanyininin və digər tanınmış Avropa bəstəkarlarının əsərlərindən parçalar səsləndirilib.

## Yeni qalaktika kəşf olunub

kainat



ABŞ-dakı Santa-Kruz və Yel universitetlərinin alimlərinin apardıqları birgə tədqiqat nəticəsində qalaktikamızdan 13,1 milyard işıq ili uzaqlıqda yeni qalaktika aşkarlanıb. Üç fərqli teleskop vasitəsilə aparılmış müşahidələrin nəticəsinə görə, bu planetlər və ulduzlar topası Kainatdakı ən yeni qalaktikalardan biridir.

EGS-zs8-1 adlandırılan bu qalaktika Böyük Partlayışdan 670 milyon il sonra yaranıb. Alimlərin hesablamalarına görə, yeni qalaktikanın «vur-tut» 100 milyon il yaşı var. Məlumata görə, Çoban ulduzu topasında yerləşən EGS-zs8-1-də Yerin olduğu qalaktika ilə müqayisədə 80 dəfə böyük ulduzlar formalaşmaqdadır.

## İtlər üçün təhlükəsizlik kəməri

maraqlı



Almaniyanın «Volkswagen» konserninə daxil olan «Skoda» şirkəti şəxsi avtomobillərdə daşınan itlərin yol qəzaları zamanı qorunması üçün təhlükəsizlik kəməri istehsal edəcək.

Britaniya mətbuatının yazdığına görə, «Skoda» şirkətinin istehsal etdiyi təhlükəsizlik kəmərləri avtomobillərin arxa oturacağına quraşdırılacaq. Arxa oturacaqda olan itlərin sinəsinin üzərindən çarpaz kəmərlə onları qoruyacaq bu aksessuar yol-nəqliyyat hadisələri zamanı çox faydalı olacaq.

Şirkət bu kəmərləri «Fabia», «Octavia», «Superb» markalı avtomobillərin istehsalında istifadə etməyi planlaşdırır.

**Müdriklər deyib ki...**



*"İnsanın ləyaqəti onun məqsədə çatıb-çatmaması ilə yox, hansı məqsədə və hansı yolla getməsi ilə müəyyən olunur".*

**Abay Kunanbayev (1845-1904)**